RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 53 (8646) ÇƏRŞƏNBƏ, 10 mart 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Prezident İlham Əliyev rəsmi "Facebook" səhifəsində Beynəlxalq Qadınlar Günü münasibətilə paylaşım edib



Prezident İlham Əliyev rəsmi "Facebook" səhifəsində Beynəlxalq Qadınlar Günü münasibətilə paylaşım edib.

◆ **Milli Məclisin iclasında**

## İşğaldan azad olunmuş ərazilərdə yerli özünüidarə orqanları formalaşdırılacaq

### Sahibə QAFAROVA: "Hərbi qulluqçular dövlətin daimi qayğısı ilə əhatə olunurlar"

Martın 9-da Milli Məclisin növbəti plenar iclası keçirildi. Milli Məclisin sədri Sahibə Qafarova öncə Yeni Azərbaycan Partiyasının martın 5-də keçirilən VII qurultayı münasibətilə partiyanın üzvlərini təbrik etdi.

Spiker qeyd etdi ki, qurultayda Azərbaycan Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev geniş çıxış edib. Proqram xarakteri daşıyan həmin nitqdə Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan partiyanın yaranması tarixinə, ölkəmizin ictimai-siyasi inkişafında oynadığı son dərəcə mühüm rola nəzər salınıb, Azərbaycanın siyasi, iqtisadi və hərbi potensialının gücləndirilməsi, dünyanın hesablaşdığı nüfuzlu bir dövlətə çevrilməsi üçün görülmüş işlərdən, qarşıda dayanan vəzifələrdən bəhs edilib.

*Ardı 2-ci səh.*

## Prezident İlham Əliyev Azərbaycan həqiqətlərini dünyaya bir daha çatdırdı

### Dövlət başçısının səsləndirdiyi bu həqiqətlər dünya mediasının gündəmindən düşmür

Prezident İlham Əliyevin yerli və xarici media nümayəndələri üçün mətbuat konfransının fevralın 26-da - Xocalı soyqırımı günündə keçirilməsi təsadüfi deyildi. Dövlət başçısı həmin gün bir daha dünyaya erməni faşizminin Xocalıda törətdiyi soyqırımı barədə geniş məlumat verdi.

Məlumdur ki, ermənilər bu faciəni hər vəchlə gizlətməyə çalışırlar. Bununla yanaşı, fürsət düşdükcə Xocalıda azərbaycanlılara qarşı törədilən vəhşilikləri ermənilərin özlərinə qarşı həyata keçirilən soyqırımı kimi qələmə verməyə də cəhd edirlər. Odur ki, Prezidentin bu soyqırımı barədə verdiyi mötəbər məlumatlar bir daha dünyaya erməni faşizminin iç üzünü açıb göstərdi. Konfrans boyu 30 illik işğala və postmüharibə dövrünə aid bir çox həqiqətlər də çatdırıldı.

*Ardı 3-cü səh.*

## Bayram günlərində xüsusilə ehtiyatlı olmalıyıq

COVID-19 pandemiyası bütün dünyada insanlar üçün ciddi çətinliklər yaratmaqda davam edir. Artıq bu təhlükəli virusa yoluxanların ümumi sayı 117 milyona çatıb. Pandemiya ərzində koronavirusdan ölənlərin sayı isə 2,5 milyonu ötüb.

Son günlər ərzində infeksiyaya yoluxanların 45 faizindən çoxu Şimali və Cənubi Amerikada, daha sonra Avropada, Cənub-Şərqi Asiyada qeydə alınıb. Ən çox yoluxma halı yenə də ABŞ, Hindistan, Braziliya və Rusiyada müşahidə olunub.

Keçən həftə Avropada COVID-19-a yoluxma 9 faiz artaraq milyonu keçib. Avropada həm də virusun yeni növü yayılıb. Belə ki, Avropadakı 53 ölkədən 43-də ilk dəfə Böyük Britaniyada aşkarlanan koronavirusun B.1.1.7, 26 ölkəsində Cənubi Afrikada aşkarlanan B.1.351 növü qeydə alınıb, 15 ölkədə isə ilkin olaraq Braziliya və Yaponiyada aşkar edilən P1 növü dövr edir.

*Ardı 5-ci səh.*

## Daim bir yerdəyik



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 9-da Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komissiyasının sədri Akif Çağatay Kılıçın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan **Prezident İlham ƏLİYEV** dedi:

- Xoş gəlmisiniz.

**Akif Çağatay KILIÇ:** Xoş gördük cənab Prezident, necəsiniz?

**Prezident İlham ƏLİYEV:** Çox sağ olun. Şadam sizi görməyimə.

**Akif Çağatay KILIÇ:** Bizi qəbul etdiyiniz üçün çox təşəkkür edirik.

**Prezident İlham ƏLİYEV:** Sizin səfəriniz, əlbəttə, böyük önəm daşıyır. Çünki parlamentlərarası əlaqələrimiz də çox uğurla inkişaf edir. Həm ikitərəfli formatda, həm beynəlxalq təşkilatlar çərçivəsində daim bir yerdəyik, bir-birimizi dəstəkləyirik. Əlbəttə ki, İkinci Qarabağ müharibəsi zamanı Türkiyə tərəfindən göstərilən dəstək, bildiyiniz kimi, bütün Azərbaycan xalqını çox məmnun etdi. Bu, təbiidir. Çünki iki qardaş ölkə daim bir-birinin yanındadır. Əziz qardaşım hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın ilk saatlardan bizə verdiyi siyasi və mənəvi dəstək, əlbəttə ki, bizi çox ruhlandırdı. Eyni zamanda Türkiyə Böyük Millət Məclisinin rəhbəri hörmətli Mustafa Şentop və parlament üzvləri də bizə həmrəylik və dəstək göstərmişlər. Yəni bu müharibə günləri bir daha göstərdi ki, bizim xalqlarımız nə qədər bir-birinə bağlıdır, nə qədər bir-birinə sevgi ilə və hörmətlə yanaşır. Bu yaxınlarda İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə görüşündə də əziz qardaşım hörmətli Prezident Azərbaycan haqqında, bizim Zəfərimiz haqqında çox gözəl sözlər demişdir. Bildiyiniz kimi, bu Zəfəri qeyd etmək üçün ötən ilin sonunda Bakıda hərbi parad keçirilmişdir.

Onu da bildirməliyəm ki, Türkiyənin mətbuatı, bütün ictimai qurumları bu müharibə dövründə Azərbaycana çox böyük dəstək göstərdilər. Biz bunu çox yüksək qiymətləndiririk. Bu gün bizim bölgəmizdə yeni vəziyyət yaranmışdır, yeni reallıq yaradılmışdır. Artıq Dağlıq Qarabağ münaqişəsi tarixdə qaldı, artıq həll edildi, bitdi. İndi gələcəyə baxmalıyıq və bölgəmizdə əməkdaşlıq haqqında düşünməliyik, xüsusilə nəqliyyat layihələrinin həyata keçirilməsi, Zəngəzur dəhlizinin açılması çox önəmli məsələlərdən biridir. Əminəm ki, birgə səylərlə buna da nail olacağıq. Sizi bir daha ürəkdən salamlayıram. Xoş gəlmisiniz.

❖ ❖ ❖

Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komissiyasının sədri **Akif Çağatay KILIÇ** dedi:

- Hörmətli cənab Prezident, əvvəlcə mən də hörmətli Prezidentimizin Sizə salam və sevgilərini çatdırmaq istəyirəm. Həmçinin Məclis sədrimizin də Sizə sevgi, salam və ehtiramları var. Təbii ki, biz Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komissiyasının üzvləri olaraq, Sizin böyük Zəfərinizdən həm çox məmnunluq duyuruq, həm də bu mənada birlik və bərabərliyimizi bir daha göstərmək üçün Sizi ziyarət etmək istədik. Bizi qəbul etdiyiniz üçün Sizə təşəkkürümüzü bildiririk.

Cənab Prezident, Türkiyə Böyük Millət Məclisində Sizin bu uğurunuzu, bu liderliyinizi və Siz də dediyiniz kimi, bölgənin tarixində dönüş nöqtəsi olan bu mübarizənizi dəstəkləyən dörd siyasi partiyanın, - bilirsiniz, Türkiyə Böyük Millət Məclisi bu barədə bəyanat qəbul etdi, - təmsilçiləri olaraq buradayıq.

❖ ❖ ❖

Prezident İlham Əliyev Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın və Türkiyə Böyük Millət Məclisinin sədri Mustafa Şentopun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Türkiyə dövlətinin başçısına və parlamentinin sədrinə çatdırmağı xahiş etdi.

## YAP yeni strategiyasını müəyyənləşdirdi

### Cənubi Qafqazın ən böyük siyasi təşkilatı hər zamankı kimi, demokratik ənənələrin inkişafına böyük töhfə verir

Bütün dövlətlərdə hakimiyyətdə olan siyasi partiyaların qəbul etdiyi qərarlar ölkənin siyasi həyatına birbaşa təsir edir. Bu baxımdan Yeni Azərbaycan Partiyasının martın 5-də keçirilən VII qurultayı təbii olaraq ölkə ictimaiyyətinin diqqət mərkəzində idi.

Həmçinin Vətən savaşındakı Şanlı Qələbədən sonra və ölkədə aparılan islahatlar fonunda qurultayın baş tutması həm də ölkənin gələcək inkişafı baxımından da önəmli hadisə sayılırdı.

Hakim partiyanın budəfəki ali toplantısı vacib qərarların qəbul edilməsi ilə yadda qaldı. Partiyanın yeni Nizamnaməsi qəbul olundu, 40 nəfərdən ibarət tərkibdə İdarə Heyəti seçildi, 6 siyasi partiyanın YAP-a qoşulmasına dair qərar qəbul edildi. Bununla da ölkənin siyasi həyatında tamamilə yeni bir strategiyanın əsası qoyuldu. Ona görə də deyə bilərik ki, bu qurultay demokratik ənənələrin inkişafına ciddi töhfə verəcək.

#### Qurultayın keçirilməsi zərurəti yaranmışdı

Bu həqiqətdir ki, İlham Əliyevin uğurlu siyasəti nəticəsində Azərbaycan sürətlə inkişaf edən ölkəyə çevrilib.

*Ardı 4-cü səh.*

◆ **Qarabağdan reportaj**

## Ağdamda zəfər tonqalı qalandı

### İlham Əliyevin azad etdiyi Qarabağdakı Novruz alovunun şəfəqi yenidən canlanan həyatın rəmzinə çevrildi

*- Oğul, qalx uca dağ başına üç tonqal qala...*

*Bir tonqal qalayanda elimiz şənliyə toplaşır...*

*İki tonqal qalayanda basqınlardan qorumağa yığışır...*

*Qoy, indi, üç tonqal görəndə hamı cütlə, xışla gəlsin. Bilsinlər ki, işləməliyik.*

*İşimiz avand, torpağımız bərəkətli olsun, çağlayıb axan sularımız qurumasın, qanadlarımız qırılmasın, uca dağın ocaqları həmişə yanar dursun!..*

Hər kəsə tanış olan ulu Dədə Qorqudun bu ibrətli kəlamları illərdən bəri xalqımızın tapındığı həqiqətlərin, əməl etdiyi xeyirxah işlərin təcəssümüdür.

*Ardı 5-ci səh.*



## Birinci vitse-prezident Mehriban Əliyeva Beynəlxalq Qadınlar Günü münasibətilə Azərbaycan qadınlarını təbrik edib



Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" səhifəsində 8 Mart - Beynəlxalq Qadınlar Günü münasibətilə paylaşım edib.

AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir:

*"Əziz qadınlar!*

*Beynəlxalq Qadınlar Günü münasibətilə sizin hamınızı səmimi-qəlbdən təbrik edirəm! Siz zəriflik, sədaqət, xeyirxahlıq, mənəvi saflıq, gözəllik və ülvilik rəmzi olan "qadın" sözünün ucalığını ləyaqətlə qoruyursunuz.*

*Vətənimiz üçün layiqli oğullar tərbiyə etmiş analara ən xoş arzularımı çatdırıram! Vətən müharibəsi günlərində siz misli görünməmiş mətanət, fədakarlıq və möhkəm iradə nümayiş etdirdiniz. Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olmuş qəhrəmanların analarının qarşısında baş əyirəm.*

*Sizin hər birinizə möhkəm cansağlığı və ailə səadəti arzulayıram! Uca Tanrı sizi və sizin doğmalarınızı qorusun!"*

## İşğaldan azad edilmiş ərazilərdə kompleks quruculuq işləri aparılacaq

Fevralın 26-da Azərbaycan Prezidenti İlham Əliyevin yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransı nəinki ölkə əhalisi və konfrans iştirakçıları, hətta dünyanın bir çox ölkələrinin aparıcı KİV-i tərəfindən də rəğbətlə qarşılanıb. Mətbuat konfransında dünyanın 35 media qurumundan 50-dək nümayəndə iştirak etmişdir. Dörd saatdan çox davam edən konfransda Azərbaycan Prezidenti jurnalistlərin suallarını dörd dildə - Azərbaycan, türk, ingilis və rus dillərində cavablandıraraq ölkəmizdə baş verən son hadisələri gündəmə gətirmişdir.

Xocalı soyqırımının 29-cu ildönümü ilə bağlı Azərbaycanda keçirilən tədbirləri işıqlandırmaq üçün ölkəmizdə olan xarici KİV nümayəndəsinin iştirak etdiyi mətbuat konfransında dövlət başçısı Xocalı soyqırımı ilə bağlı ətraflı məlumatlar verərək demişdir: "...mən tam əminəm ki, illər keçdikcə Xocalı soyqırımı haqqında həqiqətləri bütün dünya biləcək və bizim vəzifəmiz bundan ibarətdir. Biz bundan sonra da çalışacağıq ki, dünya ölkələri bu soyqırımı rəsmən soyqırımı kimi tanısınlar. Bu istiqamətdə işlər ardıcıl surətdə bundan sonra da aparılacaqdır".

Jurnalistlərin marağına səbəb olan Ermənistanda baş verən siyasi gərginlik barədə fikirlərini açıqlayan dövlət başçısı bildirmişdir ki, Ermənistan ağır durumdadır, orada gedən proseslər ölkənin dövlətçilik əsaslarını böyük dərəcədə sarsıdır. Bunun günahkarları Ermənistanın əvvəlki və indiki rəhbərliyidir.

*Ardı 3-cü səh.*

## Diaspor təşkilatları Ermənistana maliyyə yardımını dayandırıblar

Dərin tənəzzül dövrünü yaşayan Ermənistanda aylardır davam edən siyasi gərginlik daha ağır mərhələsinə qədəm qoyub. Belə ki, silahlı qüvvələrin baş qərargah rəisi Onik Qasparyanın baş nazir Nikol Paşinyanın istefasını tələb etməsindən sonra vəziyyət daha da pisləşib. Baş nazir bunu "çevrilişə cəhd" adlandırıb və baş qərargah rəisinin vəzifəsindən azad edilməsi barədə prezident qarşısında vəsatət qaldırıb.

İndi hər şey prezident Armen Sarkisyandan asılıdır. Əgər o, baş nazirin vəsatətindən konstitusiya məhkəməsinə şikayət etməsə, O.Qasparyan avtomatik olaraq vəzifəsindən azad olunacaq.

Bu arada Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan da vəziyyətlə bağlı münasibətini açıqlayıb. Amma o, bir çoxunun gözlədiyinin əksinə olaraq baş qərargah rəisini dəstəkləyib. Belə ki, "ilur.am" saytında dərc edilmiş məqaləsində Levon Ter-Petrosyan generalların "dövlətçilik mövqeyindən çıxış etdiyini" bildirib. Keçmiş prezident hərbi komandanlığın narazılığını və ordunu de-fakto siyasi proseslərə çəkmək səylərini tam başa düşdüyünü bildirib.

*Ardı 3-cü səh.*

◆ Milli Məclisin iclasında

# İşğaldan azad olunmuş ərazilərdə yerli özünüidarə orqanları formalaşdırılacaq

## Sahibə QAFAROVA: "Hərbi qulluqçular dövlətin daimi qayğısı ilə əhatə olunurlar"



*Əvvəli 1-ci səh.*

Sahibə Qafarova daha sonra dedi: "Bu gün biz qürurla söyləyirik ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Silahlı Qüvvələri ölkəmizin başlıca problemini həll etmiş, 30 ilə yaxın müddətdə Ermənistanın işğal altında saxladığı torpaqlarımızı azad etmiş, dövlətimizin ərazi bütövlüyünü bərpa etmişdir. Bununla da ölkəmizdə və bölgədə tamamilə yeni geosiyasi vəziyyət yaranmışdır. Möhtərəm Prezidentin dediyi kimi, biz bütün addımlarımızı düzgün atmalıyıq ki, daim qələbə qazanaq, Azərbaycan bayrağı daim yüksəklərdə olsun".

Qurultayda bir sıra mühüm qərarların qəbul edildiyini, struktur və kadr dəyişikliklərinin həyata keçirildiyini deyən spiker məmnunluqla bildirdi ki, YAP-ın yeni Nizamnaməsinə uyğun olaraq, Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyevin sərəncamı ilə Mehriban xanım Əliyeva partiya sədrinin birinci müavini təyin edilib. Parlamentin rəhbəri bütün həmfikirləri adından Mehriban Əliyevanı təbrik edərək bu şərəfli və məsul vəzifədə ona uğurlar arzuladı. Həmçinin partiyanın rəhbər orqanlarına seçilmiş həmkarlarını da təbrik edib, onların öz fəaliyyətləri ilə bu yüksək etimadı doğruldacaqlarına inamını bildirdi.

Sahibə Qafarova vurğuladı ki, Yeni Azərbaycan Partiyası xalqın istək və arzularını təcəssüm etdirən siyasi qüvvə kimi tarixi zərurətdən yaranıb; vətənpərvərlik, əqidə birliyi, dövlət müstəqilliyi və suverenlik, azərbaycançılıq ideyalarının möhkəm təməli üzərində inkişaf edərək ölkəmizin siyasi həyatında indiki mövqeyinə yüksəlib. Milli Məclisin sədri əminliyini bildirdi ki, YAP üzvləri Azərbaycan Prezidenti və partiyanın sədri İlham Əliyevin həyata keçirdiyi müdrik siyasətə, onun yeni quruculuq siyasətini dəstəkləmək, onun ətrafında daha sıx birləşərək ölkəmizin xoşbəxt gələcəyi naminə bundan sonra da var qüvvələrini sərf edəcəklər.

Çıxışında ordu ilə bağlı da danışan Sahibə Qafarova dedi ki, ordu quruculuğu, silahlı qüvvələrin kompleks inkişafı və modernləşdirilməsi daim ölkə rəhbərliyinin diqqət mərkəzindədir. Şanlı Ordumuzun nailiyyətləri Milli Məclisin iclaslarında da dəfələrlə vurğulanıb və yüksək qiymətləndirilib. O qeyd etdi ki, hazırda dünyanın güclü Silahlı Qüvvələri sırasında layiqli yer tutan Azərbaycan Ordusu Vətən müharibəsi zamanı ölkəmizin və dünyanın hərb tarixinə yeni şanlı səhifələr yazıb. Spiker onu da vurğuladı ki, erməni faşizmi üzərində qələbənin silahlı qüvvələrimizin texnoloji təminatı hesabına deyil, əsgər və zabitlərimizin mərdlik və şücaəti, fədakarlığı sayəsində əldə edildiyini unutmaq olmaz. Prezident İlham Əliyevin dediyi kimi, "Bu qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir. ...bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir".

Milli Məclis Sədri bildirdi ki, hərbi qulluqçuların təminatının yaxşılaşdırılması, sosial müdafiəsinin gücləndirilməsi ölkəmizdə həyata keçirilən hərbi siyasətin ən mühüm istiqamətlərindən birini təşkil edir. Bu günlərdə post-müharibə dövrünün, xidmətin xüsusiyyətləri, qulluq və sosial-məişət şəraitinin mürəkkəbliyi nəzərə alınaraq hərbi qulluqçuların vəzifə maaşlarına müddətli əlavələr müəyyən edilib. Azərbaycan Ordusunun Ermənistanla dövlət sərhədində və Azərbaycanın Qarabağ bölgəsində Rusiya sülhməramlı kontingentinin yerləşdirildiyi zonaya bitişik ərazilərdə hərbi xidmət keçən hərbi qulluqçuların vəzifə maaşlarına 100 faiz həcmində, işğaldan azad edilmiş və həmin ərazilərdə infrastruktur qurulmayan ərazilərdə hərbi xidmət keçən hərbçilərin vəzifə maaşlarına isə 50 faiz həcmində müddətli əlavələr təyin olunub. Maaş əlavələri ilə bağlı bu qərar ordumuza təlqin edən proses nəticəsində qəbul olunub. "Bütün bunlar onu göstərir ki, hərbi qulluqçular dövlətin daimi qayğısı ilə əhatə olunurlar və onların problemlərinin həlli hər zaman olduğu kimi, bundan sonra da dövlətimizin rəhbərliyinin diqqət mərkəzində olacaq" deyə Sahibə Qafarova bildirdi.

Daha sonra cari məsələlər müzakirə olundu. Komitə sədri Zahid Oruc, deputatlardan Kəmaləddin Qafarov, Azay Quliyev, Cavid Osmanov, Əli Məsimli, Soltan Məmmədov, Etibar Əliyev, Sahib Alıyev, Bəhruz Məhərrəmov, Fazil Mustafa bir sıra məsələlərlə bağlı fikirlərini bildirdilər.

İclasda ilk olaraq bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi dinlənildi. 2020-ci il üzrə illik məruzəni parlamentə ədliyyə nazirinin müavini Vilayət Zahirov təqdim etdi. Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı Zəfərdən söz açan məruzəçi bildirdi ki, ədliyyə və məhkəmə işçiləri, həmçinin bələdiyyə nümayəndələri həmin döyüşlərdə fədakarlıq göstəriblər. Müharibə dövründə Ədliyyə Nazirliyi ordumuza, yaralılara və şəhid ailələrinə maddi, mənəvi və tibbi dəstəyini əsirgəməyib. Eyni zamanda nazirlik xarici dövlətlərin ədliyyə nazirlərinə, dünya ölkələrinin prokurorlarına və nüfuzlu beynəlxalq təşkilatlara Ermənistanın işğalçılıq və insanlıq əleyhinə cinayətləri barədə reallığı əks etdirən 400-dək müraciət ünvanlayıb. Ölkəmizin ədalətli mövqeyini təbliğ etmək məqsədilə Ədliyyə Nazirliyi tərəfindən yaradılan "Qarabağ Azərbaycandır!" elektron məlumat platforması 3 dildə (Azərbaycan, rus, ingilis) fəaliyyət göstərib. Ölkə həqiqətlərini dünyaya geniş yaymaqda və erməni təbliğatını ifşa etməkdə öz imkanlarını səfərbər etmələri üçün bələdiyyələrlə də lazımi iş aparılıb.

Deputatların nəzərinə çatdırıldı ki, pandemiya ilə bağlı karantin tədbirlərinə baxmayaraq, 2020-ci ildə də bələdiyyələrin fəaliyyətində səmərəliliyin artırılması, yol verilmiş pozuntuların aradan qaldırılması və qarşısının alınması istiqamətində tədbirlər davam etdirilib.

Vilayət Zahirov bələdiyyələrin fəaliyyətinin səmərəliliyini artırmaq məqsədilə ötən il mövcud qanunvericiliyə bir sıra dəyişikliklər edildiyini də vurğuladı. Yerli özünüidarəetmə qurumlarının işinə kömək və metodoloji yardım məqsədilə təlimatlar hazırlandığını bildirdi.

Məlumat verildi ki, 2020-ci il ərzində Ədliyyə Nazirliyində 79 min 858, Naxçıvan MR-in Ədliyyə Nazirliyində isə 2 min 670 bələdiyyə aktına inzibati nəzarət qaydasında baxılıb və hüquqi ekspertizadan keçirilib. Həmin sənədlərin 95,7 faizi qanunvericiliyə uyğun hesab edilib. 2 min 939 aktın dəyişdirilməsi və ya ləğv edilməsi üçün aidiyyəti bələdiyyələrə təkliflər verilib. Bu təkliflər əsasında bələdiyyələr tərəfindən 1416 akt ləğv edilib, 1316 akt isə dəyişdirilib. Bələdiyyələr tərəfindən təmin olunmayan 13 təklif üzrə məhkəmə iddiası qaldırılıb, onlardan 2-si təmin edilib.

2020-ci ildə bələdiyyələrin fəaliyyəti ilə bağlı 3 min 206 müraciətə baxılıb. 164 müraciət təmin və ya qismən təmin edilib ki, bu da 2019-cu illə müqayisədə 17 faiz çoxdur. İl ərzində bələdiyyələrin vəzifəli şəxslərindən 172 nəfər barəsində inzibati xəta protokolu tərtib edilərək məhkəmələrə göndərilib, həmin protokollar əsasında 138 bələdiyyə sədri inzibati məsuliyyətə cəlb edilib.

Bələdiyyələrin fəaliyyətinə inzibati nəzarət tədbirləri nəticəsində ötən il 8 min 217 ha torpaq sahəsi bələdiyyə mülkiyyətinə və ya sahibliyinə qaytarılıb, 2 min 261 ha torpaq sahəsi ilə bağlı mübahisələr isə məhkəmələrin icraatındadır.

Yekunda ölkəmizdə bələdiyyələrin 1999-cu ildən fəaliyyət göstərdiyini qeyd edən Vilayət Zahirov işğal altında olmuş 950-dən çox yaşayış məntəqəsində bələdiyyə seçkilərinin keçirilmədiyini, işğal nəticəsində məcburi köçkünə çevrilmiş vətəndaşlarımızın öz konstitusion hüquqlarından - yerli özünüidarəetmə hüququndan məhrum olduğunu dedi. Bildirdi ki, işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma işləri başa çatdıqdan, yaşayış üçün zəruri infrastruktur yaradıldıqdan sonra öz ata-baba yurdlarına qayıdacaq vətəndaşlarımızın konstitusion hüquqları bərpa olunacaq, o torpaqlarda bələdiyyə seçkiləri keçiriləcək və yerli özünüidarə orqanları formalaşacaq. Bu istiqamətdə Ədliyyə Nazirliyi də qarşısında dayanan vəzifələri yerinə yetirməkdə davam edir.

Məruzə ətrafında aparılan müzakirələrdə Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli, Milli Məclis sədrinin müavini Adil Əliyev, komitə sədrləri Siyavuş Novruzov və Tahir Rzayev, deputatlar Qüdrət Həsənquliyev, Kamran Bayramov, Azər Badamov, Erkin Qədirli, Əli Məsimli, Razi Nurullayev illik məruzəni və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın 2020-ci ildə gördüyü işləri müsbət dəyərləndirdilər. Məruzənin yüksək səviyyədə hazırlandığı qeyd olundu. Bələdiyyələrin fəaliyyətinin təkmilləşdirilməsi məqsədilə irad və təkliflər də nəzərə çatdırıldı.

Müzakirələrdən sonra bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın illik məruzəsi nəzərə alındı.

İclasda "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanunda, Ailə Məcəlləsində və Mülki Prosessual Məcəllədə dəyişiklik edilməsi barədə qanun layihələri üçüncü oxunuşda qəbul olundu.

Sonra ikinci oxunuşda təqdim olunmuş 3 məsələyə baxıldı. Azərbaycan Respublikasının Əmək Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində, həmçinin "Elektroenergetika haqqında", "Qaz təchizatı haqqında", "Su təchizatı və tullantı suları haqqında", "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri qəbul edildi.

İclasda son olaraq "İcra haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirəyə çıxarıldı. Məlumat verildi ki, qanun layihəsi "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" 2019-cu ildə qəbul olunmuş qanunun icrası ilə əlaqədardır. Həmin dövrdə Vergi Məcəlləsinə 162 maddədən ibarət fundamental dəyişikliklər edilib. Hazırda icra haqqında qanuna təklif edilən dəyişiklik məcəlləyə uyğunlaşdırma məqsədi daşıyır. Müzakirələrdən sonra qanun layihəsi səsə qoyuldu və birinci oxunuşda qəbul edildi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Bu gün dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın olan ölkələr yoxdur

Martın 9-da Milli Məclisin sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Türkiyə Böyük Millət Məclisinin (TBMM-in) Xarici əlaqələr komissiyasının sədri Akif Kılıçın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, sədr qonaqları səmimi salamlayaraq səfərin əlaqələrimizə yeni töhfə verəcəyinə ümidvar olduğunu bildirib. Spiker ötən həftə Bitlisdə baş verən helikopter qəzasında türk hərbçilərinin şəhid olması ilə bağlı qonaqların simasında türk xalqına, həyatını itirənlərin yaxınlarına şəxsən öz adından və Milli Məclisin deputatları adından dərin hüznlə başsağlığı verib, yaralılara şəfa diləyib.

İki dost və qardaş ölkə olan Azərbaycan ilə Türkiyə arasında münasibətlərin daim inkişaf etdiyini vurğulayan sədr deyib ki, bu gün dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın olan ölkələr yoxdur. Qeyd edilib ki, Vətən müharibəsi dönəmində də Türkiyə Azərbaycana siyasi və mənəvi dəstək göstərib, qardaş Türkiyə xalqı Azərbaycanın yanında yer alıb. Bu, ulu öndər Heydər Əliyevin "bir millət, iki dövlət" ifadəsinin real həyatda bariz təcəssümü idi. Prezident İlham Əliyevin dediyi kimi, ölkələrimiz arasındakı münasibətlərin dünya siyasi sistemində alternativi yoxdur. Ortaq dilə, dinə, mədəniyyətə, tarixə sahib xalqlarımız arasındakı bu münasibətlər əsl qardaşlıq ruhuna söykənir.

Münasibətlərimizin inkişafında parlamentlərin rolundan danışan spiker hər iki ölkənin qanunvericilik orqanlarında dostluq qruplarının fəaliyyət göstərməsini təqdir edib. Bildirilib ki, parlamentlər arasında həm ikitərəfli, həm də beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsi baxımından çox önəmlidir. Sədr üçtərəfli formatda - Azərbaycan-Türkiyə-Gürcüstan parlamentlərinin xarici əlaqələr komitələrinin əməkdaşlığını əhəmiyyətli hesab edib. Bildirib ki, bu gün regional formatda görüşlərin keçirilməsi çox önəmlidir.

Səmimi qəbul üçün minnətdarlığını bildirən Türkiyə Böyük Millət Məclisinin Xarici əlaqələr komissiyasının sədri Akif Kılıç ölkəmizə səfərindən nümayəndə heyəti üzvlərinin məmnunluq duyduqlarını söyləyib. Qeyd edilib ki, Azərbaycanın apardığı 44 günlük Vətən müharibəsi dönəmində bütün türk xalqı kimi, türkiyəli millət vəkilləri də bölgədə baş verən hadisələri diqqətlə izləyib, qardaş Azərbaycanın uğurlarına seviniblər. Azərbaycanın hiss etdiyini Türkiyə də hiss edirdi. Biz Azərbaycanla qardaşlığımızı hər zaman duymuşuq.

Söhbət zamanı Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov və Türkiyə ilə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Əhliman Əmiraslanov çıxış edərək beynəlxalq təşkilatlarda, regional qurumlarda ikitərəfli və çoxtərəfli formatlarda hər iki ölkə deputatlarının səmərəli əməkdaşlığı barədə fikirlərini bölüşüb, deputatlarımızın qarşılıqlı səfərlərini və mütəmadi görüşlərini yüksək dəyərləndiriblər.

Görüşdə TBMM-in Xarici əlaqələr komissiyasının üzvləri Derya Bakbak, Ahmet Kamil Erozan, İsmail Özdemir, Utku Çakırözer, Türkiyənin ölkəmizdəki səfiri Erkan Özoral, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər iştirak ediblər.

# Yeni Azərbaycan Partiyası ölkənin inkişaf strategiyasının ideoloji sütunudur

Yeni Azərbaycan Partiyasının VII qurultayının keçirilməsi 2020-ci il növbədənkənar parlament seçkilərindən ötən dövr ərzində və Vətən müharibəsində qazandığımız Zəfərdən sonra ölkədə yaranmış yeni ictimai-siyasi şəraitdən irəli gələn zərurətlə bağlıdır.



Azərbaycan Respublikasının Prezidenti, YAP-ın sədri İlham Əliyev toplantıdakı proqram xarakterli geniş nitqində Ulu Öndər Heydər Əliyevin ideoloji mirası olan YAP-ın müstəqil Azərbaycanın inkişaf tarixində və ictimai-siyasi iqlimin sağlamlaşdırılmasında partiya rəhbərliyi tərəfindən gələn təşəbbüslərin, islahatların oynadığı rolu yüksək qiymətləndirib və yaxın zamanlarda qəbul ediləcək proqrama uyğun olaraq partiyanın qarşısında duran vəzifələrlə bağlı tövsiyələrini verib. Daha çevik, mütəhərrik və səmərəli siyasi fəaliyyətin təmin olunması məqsədilə YAP-ın idarəetmə mexanizmi yeni və daha mütərəqqi üslubda qurulub, onun mərkəzi orqanları keyfiyyətcə daha yüksək səviyyədə təşkil olunub.

Prezident İlham Əliyevin giriş və yekun çıxışlarında ölkəmiz və xalqımız üçün çox əhəmiyyətli və diqqəti çəkən bir sıra məqamları xüsusilə qeyd etmək vacibdir.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclisin deputatı Əli Hüseynli ifadə edib.

Deputat bildirib ki, Azərbaycanın yeni tarixinin obyektiv baxışlarla dəyərləndirilməsinin vacibliyi barədə təklif səsləndirən dövlət başçısı bununla bağlı Ulu Öndər Heydər Əliyevin müxtəlif mərhələlərdəki həyat və fəaliyyətinin öyrənilməsini gənclərə tövsiyə edərək deyib: "Partiya Heydər Əliyevin ətrafında yaradılmışdır, onun siyasi təcrübəsi, bilikləri, xalq qarşısında göstərdiyi xidmətlər, Naxçıvanda çalışdığı dövrdə göstərdiyi əsl vətənpərvərlik və öz xalqına olan sadiqlik Azərbaycanın mütərəqqi insanlarını onun ətrafında birləşdirdi. Burada, əlbəttə ki, onun 1970-1980-ci illərin əvvəllərində gördüyü işlər önəmli rol oynayırdı. Çünki mən bunu dəfələrlə demişəm və partiya üzvləri bunu yaxşı bilir, gənc nəsil də bilməlidir ki, Heydər Əliyev 1969-cu ildə Azərbaycana rəhbərlik etməyə başlayanda Azərbaycan Respublikası Sovet İttifaqının müttəfiq respublikaları arasında bütün göstəricilərə görə axırıncı yerlərdə idi... Heydər Əliyevin fəaliyyətinin nəticəsində 1982-ci ildə isə qabaqcıl yerlərdə idi... Heydər Əliyevin qətiyyəti, cəsarəti, müdrikliyi, xalqla daim təmasda olması, korrupsiyaya və rüşvətxorluğa qarşı amansız mübarizəsi haqlı olaraq xalq tərəfindən ona böyük rəğbət qazandırmışdır".

Prezident İlham Əliyev Azərbaycanın əsl müstəqilliyinin məhz 1993-cü ildə Heydər Əliyevin ölkə rəhbərliyinə qayıdışı ilə təşəkkül tapdığını dilə gətirərək ondan əvvəlki dövrü sovetlər birliyinin süqutundan sonra baş vermiş tarixi axının formal nəticəsi kimi dəyərləndirərək bildirib: "Biz bu tarixi yaxşı bilməliyik. O tarixi yaşamayanlar isə bunu öyrənməlidirlər. Mən demişəm, bizim dərsliklərdə bu tarixlə bağlı geniş məlumat verilməlidir. O tarixin canlı şahidləri öz xatirələrini bölüşməlidirlər ki, bu tarix əbədi yaşasın. Bu müstəqillik tariximiz məhz ondan başladı, 1991-ci ilin oktyabrından yox. Halbuki 1991-ci ilin 18 oktyabrını biz Müstəqillik Günü kimi qeyd edirik. Ancaq hər kəs bilməlidir ki, o, bizdən asılı olan proseslər deyildi. Azərbaycan hətta gecikmişdi. Artıq bir çox keçmiş müttəfiq respublikalar öz müstəqilliyini elan etmişdilər". Həqiqətən də ötən əsrin 90-cı illərinin əvvəllərində mitinqlər dalğası üzərində hakimiyyəti ələ keçirmiş AXC-Müsavat cütlüyü cəmi bir il ərzində öz səriştəsizliyi və səbatsızlığı ucbatından Azərbaycanın bütün iqtisadi potensialını məhv etmiş, ölkəni beynəlxalq aləmdən tamamilə təcrid etmiş və xəritədən silinmək təhlükəsi ilə üz-üzə qoymuşdu. Ona görə də heç kimdə şübhə ola bilməz ki, Azərbaycanı bu bəladan yalnız Heydər Əliyev siyasəti xilas edə bildi.

2003-cü ildən sonra isə Azərbaycanın müstəqil dövlət kimi özünün əvvəlki dövrdəki möhkəm təmələ əsaslanmış ən uğurlu inkişaf mərhələsini yaşadığını diqqətə çatdıran deputat bildirib ki, qurultayda söylədiyi nitqində bu məsələyə diqqət yönəldən Prezident İlham Əliyev deyib: "Həyat onu göstərdi ki, biz son 17 il ərzində, doğrudan da, tarixi uğurlara imza atdıq... Əminəm ki, bizim tarixçilərimiz, politoloqlarımız, alimlərimiz bu dövrü də məqalələrdə, kitablarda, dərsliklərdə düzgün əks etdirəcəklər. Çünki bu, gənc ölkəmizin yeni dövrü idi, əvvəlki dövrə əsaslanmış, o möhkəm təmələ əsaslanmış, amma yeni dövrüdür. Çünki bu da təbiidir. Çünki hər dövrün öz tələbləri var. Biz 1990-cı illərin tələbləri ilə XXI əsrdə yaşaya bilmərik. Hətta bu gün müharibədən sonra yeni dövr başlayır. Əvvəlki dövrlərdə əldə edilmiş bütün uğurları biz kənara qoymalıyıq. Bəli, bu, bizim üçün fundament yaratdı, baza yaratdı, imkan yaratdı ki, biz əsas məqsədimizə çataq".

"...Biz şəhidlərimizin, o cümlədən Xocalı qurbanlarının qanını aldıq... Xalqımızın böyüklüyünü bir daha göstərmək üçün hesab edirəm ki, əldə edilmiş qələbə tam bizi qane edir... Biz isə bundan sonra qürurlu xalq kimi və mübariz dövlət kimi yaşayacağıq", deyə söyləyən dövlət başçısı beynəlxalq səviyyədə göstərilən basqılar altında düşmən üzərində əldə edilmiş tarixi qələbəyə aparan yolun heç də asan olmadığını vurğulayıb: "Mən son 17 il ərzində münaqişə ilə bağlı bütün çıxışlarımda deyirdim ki... bizə hansısa yarımçıq sülh müqaviləsi lazım deyil. Yarımçıq razılaşma istər-istəməz gələcəkdə müharibə risklərini artıra bilərdi. Bizə isə tam, mütləq qələbə lazım idi".

Ə.Hüseynli vurğulayıb ki, lakin informasiya məkanında İkinci Qarabağ savaşının nəticələrinin düzgün qiymətləndirilməsi ilə bağlı bəzi boşluqların olduğuna işarə edən Prezident İlham Əliyev toplantı iştirakçılarının diqqətini, eyni zamanda, bu tarixi hadisənin əhəmiyyətinin düzgün təbliğ olunmasının vacibliyinə yönəldib: "Müharibə ilə bağlı bəzi yerlərdə gedən müzakirələrdən görürəm deyirlər ki, biz yeddi rayonu azad etmişik. Elə deyil. Biz, eyni zamanda, Şuşanı azad etmişik, eyni zamanda, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin keçmiş Hadrut rayonunu tam azad etmişik. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin keçmiş Martuni, indiki Xocavənd rayonunun 50 faizdən çox hissəsini azad etmişik. Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin keçmiş Mardakert, indiki Ağdərə rayonunun böyük hissəsini azad etmişik, o cümlədən Suqovuşan qəsəbəsini. Biz təkcə yeddi rayonu azad etməmişik. Daha çox ərazini azad etmişik və bu gün yaratdığımız reallıq artıq dünya tərəfindən qəbul edilir. Bir daha demək istəyirəm ki, bu reallığı biz yaratmışıq - güc hesabına, iradə hesabına, birlik hesabına... Müharibənin nəticələrindən biri də, əlbəttə ki, bu gün müzakirə mövzusu olan Zəngəzur dəhlizidir. Zəngəzur dəhlizi tarixi nailiyyətdir".

Bunun ardınca ordu quruculuğunu prioritet istiqamətlərdən biri kimi dəyərləndirən Ali Baş Komandan münaqişələrin həllində güc amilinin böyük əhəmiyyətini qeyd etmiş və torpaqlarımızın işğaldan azad edilməsindən sonra arxayınlaşmağın təhlükəli olduğuna işarə edərək deyib: "Əlbəttə ki, hərbi sahədə müharibə bizim şanlı səhifəmizdir... Bundan sonra bu təcrübə bizim üçün əsas olacaq, olmalıdır. Göstərişlər verildi ki, daha müasir ordu yaradaq. Çünki indi hərbi ekspertlər, beynəlxalq hərbi ekspertlər deyirlər ki, Azərbaycan XXI əsrin müharibəsini aparıbdır. Biz yəqin ki, elə planlaşdırmalıyıq ki, bəlkə də əlli ildən sonra biz XXII əsrin müharibəsinə də hazır olmalıyıq. Çünki güc hər şeyi həll edir. Əfsuslar olsun ki, bu belədir. Beynəlxalq hüquq işləmədiyi yerdə ancaq güc amili həlledici ola bilər".

Deputat bildirib ki, Azərbaycan xalqı bu gün düzgün hesablanmış siyasi strategiyanı və diplomatik və taktiki gedişlərin nəticəsi olaraq əmin-amanlıq və ictimai-siyasi sabitlik şəraitində yaşayır və gələcəyə böyük ümidlər bəsləyir. Son illər və xüsusilə də Vətən müharibəsindəki böyük Qələbənin təsiri altında məğlub Ermənistandan diametral şəkildə fərqli olaraq ölkəmizin beynəlxalq nüfuzu sürətlə yüksəlməkdədir. Bu Qələbəni müharibəyə hazırlıq mərhələsində görülmüş işlərin məntiqi nəticəsi kimi dəyərləndirən dövlət başçısı İlham Əliyev təkcə bölgədə deyil, həm də hətta BMT-nin qərarlarına təsir göstərə biləcək nüfuzlu beynəlxalq təşkilatlarla, digər dünya ölkələri ilə çoxşaxəli əməkdaşlığa nail olunduğunu qürurla qeyd edib: "Beynəlxalq məsələlərə gəldikdə, bir daha demək istəyirəm ki, biz köklü surətdə bölgəmizdə vəziyyəti dəyişdirə bildik... Biz Avropa İttifaqı ilə sıx əlaqələr qurmuşuq. Avropa İttifaqına üzv olan 9 ölkə ilə strateji tərəfdaşlıq haqqında sənədlər imzalanıb. Mən indi heç kimin haqqında danışmaq istəmirəm, amma bunu deməliyəm. "Şərq tərəfdaşlığı" ölkələrindən hansı bir ölkə Avropa İttifaqına üzv olan 9 ölkə ilə strateji tərəfdaşlıq haqqında sənəd imzalayıb? Yox. Onlar assosiasiya sazişi imzalayıblar, o sazişə də mən baxmışam. O, faktiki olaraq saziş deyil, o, təlimat kitabçasıdır, bilirsiniz, təlimat kitabçası. O ölkələrə təlimat verilir, bunu belə etməlisən, bunu elə etməlisən. Mən isə ondan imtina etdim. Dedim ki, bizə belə təlimat lazım deyil. Biz özümüz bilirik nə etmək lazımdır. Bu gün biz Avropa İttifaqı ilə bərabərhüquqlu saziş üzərində işləyirik və sazişin 90 faizi razılaşdırılıb".

Prezident İlham Əliyev tamamilə haqlı olaraq bu məsələlərlə bağlı yanlış mövqe sərgiləyənlərə də öz iradını bildirib. Çünki bəziləri hesab edirdilər ki, bu işlər əbəsdir. Lakin unutmaq olmaz ki, 2005-ci ilə qədər bizim üçün əsas hüquqi baza ancaq BMT Təhlükəsizlik Şurasının icra edilməyən qətnamələri idi. 2005-ci ildə uzun müzakirələrdən sonra aparılmış iş nəticəsində Avropa Şurası Parlament Assambleyası Azərbaycanı qane edən qətnamə qəbul etdi. AŞ PA-nın münasibəti Qarabağ məsələsini həll etmək üçün kifayət etməsə də, hüquqi baza kimi digər təşkilatlar üçün nümunə oldu. BMT Baş Assambleyası Avropa Parlamenti, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və digərləri buna oxşar qərar və qətnamələr qəbul ediblər.

Yeni Azərbaycan Partiyasının sədri İlham Əliyev dost partiyaların YAP-a qoşulmasını təqdir edib, yeni dövrdə ümumxalq maraqları naminə ölkəmizdə möhkəm birliyin və həmrəyliyin əldə olunması üçün siyasi dialoqun dərinləşdirilməsini vacib amillərdən biri olduğunu bildirib, bu işə əngəl olan, uğurlarımıza kölgə salmağa çalışan antimilli ünsürlərlə mübarizənin davam etdirilməsində israrlı niyyətini və bu istiqamətdə qazanılmış nailiyyətlərin inkişafı ilə bağlı səmərəli addımların vacibliyinə dair mövqeyini ortaya qoyub: "Bu prosesə müharibədən əvvəl start verildi və hesab edirəm ki, qısa müddət ərzində yaxşı nəticələr əldə olundu. Demək olar ki, bütün partiyalar arasında, - bir siyasi, özünü siyasi qurum adlandıran antimilli şuranı əgər biz istisna etsək, bütün siyasi qüvvələr dialoqa meyil göstərmişlər, bizim təşəbbüsümüzü alqışlamışlar və artıq bu dialoq baş tutub... Belə qərara gəldik ki, belə təklif etdik ki, ümummilli məsələlərdə heç bir, necə deyərlər, fərqli fikir ola bilməz. Hesab edirəm ki, ölkəmizin gələcək siyasi sistemi üçün siyasi sisteminin təkmilləşməsi üçün bunun böyük əhəmiyyəti var. Yeni Azərbaycan Partiyasının nümayəndələrini də, üzvlərini də buna, necə deyərlər, fikir verməyə çağırıram ki, bizim ölkə daxilində heç bir siyasi qurumla heç bir problemimiz yoxdur".

Əli Hüseynli diqqətə çatdırıb ki, bu il 30 illik yubileyini qeyd etməyə hazırlaşan Yeni Azərbaycan Partiyasının lideri İlham Əliyev qurultaydakı yekun nitqində öz siyasi həmfikirlərini dövlət səviyyəsində müəyyənləşdirilmiş siyasət çərçivəsində ölkədə gedən bütün proseslərə, islahatlara və quruculuq işlərinə dəstək verməyə, partiya üzvlərini bu məqsədlər ətrafında səfərbər olmağa dəvət edib. Bunun üçün gənc nəslin tərbiyəsində partiya veteranlarının təcrübəsindən istifadə edilməsini tövsiyə edib.

# Asiya Parlament Assambleyasının onlayn konfransı keçirilib

Martın 9-da Asiya Parlament Assambleyasının "Qadınlar və ailə əsaslı iqtisadiyyat" mövzusunda onlayn konfransı keçirilib. Tədbirə Azərbaycandan Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova, komitə üzvləri Nigar Arpadarai və Pərvin Kərimzadə qatılıblar.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, konfransda ailənin iqtisadi cəhətdən gücləndirilməsi ilə bağlı hökumətlərin həyata keçirdiyi tədbirlər, proqramlar, uğurlu təcrübələrin tətbiqi kimi məsələlər nəzərdən keçirilib.

Konfransın təşkilinə görə təşəkkürünü bildirən Hicran Hüseynova cəmiyyətlərin inkişafında qadınların daha səmərəli fəaliyyəti üçün imkanların yaradılmasının vacibliyini vurğulayıb, Azərbaycanın hələ 1918-ci ildə qadınların seçki hüququnu tanımaqla nəinki müsəlman Şərqindən, hətta bir çox Qərb dövlətlərindən qabaq gender bərabərliyi prinsipini qəbul etməsindən danışıb.

Diqqətə çatdırılıb ki, ölkədə həyata keçirilən sistemli tədbirlər, qanunvericilikdə aparılan islahatlar, qəbul edilən dövlət proqramları sayəsində ictimai, siyasi, sosial proseslərin fəal iştirakçısı olan Azərbaycan qadını üçün hazırda bütün sahələrdə geniş imkanlar yaradılıb.

Bildirilib ki, qadınların peşə hazırlığına, onların bazar iqtisadiyyatı və sahibkarlıq fəaliyyəti haqqında bilik və təcrübələr əldə etməsinə böyük əhəmiyyət verilən Azərbaycanın hər bir bölgəsində Qadın Resurs mərkəzləri təsis olunub. Biznes planlamasında və biznes fəaliyyətində, xüsusən də iqtisadi və sosial cəhətdən daha əlverişsiz şəraitdə yaşayan qadınların cəmiyyətin iqtisadi və sosial həyatında daha fəal iştirak etməsi üçün lazım olan hər cür dəstək təmin edilib. Ailə Biznesinə Dəstək Mərkəzləri (ABAD) kimi işgüzar şəbəkələr həm də qadınların əmək bazarında rəqabət qabiliyyətlərinin artırılmasına yönəlib.

Komitə sədri Hicran Hüseynova bildirib ki, Azərbaycanda qadınların iqtisadi təşəbbüskarlığının artması, onların kiçik və orta sahibkarlıqda geniş təmsilçiliyi sosial-iqtisadi inkişafın, o cümlədən məşğulluğun təmin olunması baxımından mühüm əhəmiyyət kəsb edir. Vurğulanıb ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərliyi ilə qaçqın və məcburi köçkün qadınlar, aztəminatlı ailələrdən olan qadınlar üçün kiçik və orta sahibkarlıqla bağlı layihələr həyata keçirilir. İşğaldan azad edilmiş ərazilərimizin bərpası zamanı kiçik və orta biznesin nümayəndələri də cəlb olunacaq, onların burada öz fəaliyyətlərini genişləndirməsinə imkan yaradılacaq.

Hicran Hüseynova diqqətə çatdırıb ki, bu gün dünya COVID-19 pandemiyası ilə üz-üzədir və insanlar üçün yeni çətinliklər yaranmaqdadır. Hər bir dövlət çalışır ki, həm iqtisadi vəziyyəti nəzarətdə saxlasın, həm də insanların sağlamlığını qorusun. Belə bir şəraitdə Azərbaycan öz modelini təqdim edib. Əlbəttə ki, bu modelin əsasında insan faktoru dayanır. Dövlət tərəfindən məşğulluğa və sosial rifaha dəstək məqsədilə 4 istiqamət üzrə 10 tədbir planı həyata keçirilir. Dövlət sərt karantin tədbirləri nəticəsində qeyri-formal iş yerini itirən və əvvəlcədən işsiz olan şəxslərin sosial vəziyyətini diqqətdə saxlayır. Eyni zamanda həssas təbəqədən olan aztəminatlı ailələr, şəhid və müharibə iştirakçılarının ailələri, qaçqın və məcburi köçkünlər, kiçik və orta sahibkarlıq fəaliyyəti ilə məşğul olanlar üçün sosial paket yerinə yetirilir. Kiçik və orta sahibkarlıqla məşğul olanların həm özlərinə, həm də işçilərinə ödəmələr verilib. Bu sırada xüsusilə qadın sahibkarları da qeyd etməliyik.

Sonra çıxışlarla davam edən tədbirdə mövzu ilə bağlı ətraflı fikir mübadiləsi aparılıb, keçirilən konfransın ailə iqtisadiyyatında qadın iştirakçılığının artırılmasına mühüm töhfə verəcəyinə inam ifadə olunub.

## “Israel HaYom” qəzeti: “Azərbaycan Prezidenti Administrasiyasının rəsmi nümayəndəsi tibbi yardım üçün İsrailə təşəkkür edib”



Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev deyib: “Biz İsrail həkimlərinə, İsrailə çox minnətdarıq. Bu, bizim dostluğumuzun və əməkdaşlığın sübutudur”.

AZƏRTAC xəbər verir ki, israilli jurnalist Din Şmuel Elmas bu haqda İsrailin aparıcı ivritdilli nəşri olan “Israel HaYom” qəzetində yazıb.

Nəşrdə İsrailin Bakıdakı səfiri Corc Dikin sözləri də sitat gətirilib. Səfir deyib: “Bu, bizim aramızda mövcud olan dostluğun ruhunu əks etdirir”.

Məqalənin müəllifi qeyd edir ki, ötən həftənin bazar ertəsi günü səfir Corc Dik başda olmaqla, İsrailin Azərbaycandakı səfirliyi tibbi yardım göstərilməsi üzrə fövqəladə əməliyyat həyata keçirib. Dağlıq Qarabağda Vətən müharibəsi zamanı yaralanmış Azərbaycan əsgərlərinə və zabitlərinə ən azı 150 əməliyyat aparılması və onların müalicəsinin həyata keçirilməsi məqsədilə israilli oftalmoloqların və plastik cərrahların Azərbaycana səfərləri təşkil edilib.

Cümə günü Azərbaycan hökumətində yüksəkvəzifəli şəxslərdən biri, Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev öz “Twitter” səhifəsində İsrail həkimlərinə minnətdarlığını və hörmətini bildirib.

Hikmət Hacıyev öz “Twitter” səhifəsində yazıb: “Bu, çox əlamətdar hadisədir. Bizim yaralı əsgərlərimizə və zabitlərimizə real tibbi yardım göstərmiş tibbi personala və İsrail səfirliyinə dərin minnətdarlığımızı bildiririk. Bu, ölkələrimiz arasında dostluğun sübutu və təcəssümüdür”.

Hikmət Hacıyev öz “tvit”ini yəhudi mənbələrindən bir sitatla bitirib: “Bir insanı xilas edən şəxs dünyanı xilas edir”.

Məqalənin müəllifi qeyd edir ki, İsrailin Azərbaycandakı səfiri Corc Dik dünən öz “Twitter” səhifəsində belə bir mesaj yerləşdirib:

“Bu, İsrail ilə Azərbaycan arasında dostluğun ruhunu əks etdirir. Biz bu insanların möhkəm sağlamlığını, özünə əminlik hissini və öz Vətənində - Azərbaycanda normal və layiqli yaşamaq qabiliyyətini qaytarmaq istəyirik”.

## İndoneziya zəlzələnin fəsadlarının aradan qaldırılması üçün göstərilən humanitar yardıma görə Azərbaycana minnətdarlıq edib

Yanvarın 15-də İndoneziyanın Sulavesi adasında baş vermiş zəlzələnin fəsadlarının aradan qaldırılmasına dəstək məqsədilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, Nazirlər Kabinetinin müvafiq sərəncamı ilə İndoneziyanın Qırmızı Xaç Cəmiyyəti vasitəsilə bu ölkəyə 50 min ABŞ dolları məbləğində humanitar yardım göstərilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, İndoneziyanın Qırmızı Xaç Cəmiyyəti tərəfindən göstərilmiş humanitar yardıma görə başda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev olmaqla Azərbaycan xalqına minnətdarlıq ifadə olunub.

Xatırladaq ki, yanvarın 15-də Sulavesi adasında baş vermiş 6,2 bal gücündə zəlzələ 27 nəfərin ölümünə, 600 nəfərdən çox insanın yaralanmasına səbəb olub. Təbii fəlakət nəticəsində 100-ə yaxın evə ziyan dəyib, 10 yaşayış evi isə tamamilə dağılıb.

## Yeni Azərbaycan Partiyasının sədr müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov kollektivə təqdim olunub





Martın 9-da Yeni Azərbaycan Partiyasının sədr müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov kollektivə təqdim olunub. Bu barədə AZƏRTAC-a partiyadan məlumat verilib.

Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP sədrinin müavini Əli Əhmədov çıxış edərək Yeni Azərbaycan Partiyasının martın 5-də keçirilən VII qurultayında partiyanın sədri, Prezident İlham Əliyevin proqram xarakterli çıxışından bəhs edərək, partiyanın strukturunda da ciddi dəyişikliklərin olunduğunu diqqətə çatdırıb.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev çıxışında ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə genişmiqyaslı islahatların həyata keçirildiyini və bu islahatların siyasi sferanı da əhatə etdiyini diqqətə çatdırıb. Ədalət Vəliyevin sözlərinə görə, Yeni Azərbaycan Partiyasının VII qurultayında qəbul olunmuş qərarlar da bu islahatların tərkib hissəsi hesab olunmalıdır.

YAP Mərkəzi Aparatının rəhbəri Tahir Budaqovun fəaliyyətinin Azərbaycan ictimaiyyətinə yaxşı tanış olduğunu deyən Ədalət Vəliyev qeyd edib ki, Tahir Budaqov uzun illərdir həm siyasi, həm də dövlət orqanlarında uğurla fəaliyyət göstərir.

Çıxış edən YAP-ın sədr müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov göstərilən böyük etimada görə Yeni Azərbaycan Partiyasının sədri, Prezident İlham Əliyevə təşəkkürünü bildirib və bu etimadı layiqincə doğrultmağa çalışacağını, partiyanın qarşısında dayanan vəzifələrin uğurla yerinə yetirilməsi üçün səylərini əsirgəməyəcəyini vurğulayıb.

## Azərbaycanın münaqişənin təsirinə məruz qalan ərazilərində BMT ilə humanitar fəaliyyət sahəsində əməkdaşlıq müzakirə edilib



Martın 9-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramovun BMT-nin Humanitar Məsələlərin Əlaqələndirilməsi Ofisinin rəhbəri Mark Loukokla videokonfrans formatında görüşü keçirilib. Görüşdə hər iki tərəfdən nümayəndə heyətləri iştirak ediblər.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, videokonfransda tərəflər bölgədə mövcud olan vəziyyət, o cümlədən 2020-ci il 10 noyabr və 2021-ci il 11 yanvar tarixli üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri müzakirə ediblər.

Görüşdə həmçinin Azərbaycanın münaqişənin təsirinə məruz qalan bütün ərazilərində BMT və onun müvafiq agentlikləri ilə humanitar fəaliyyət sahəsində əməkdaşlığa dair məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Prezident İlham Əliyev Azərbaycan həqiqətlərini dünyaya bir daha çatdırdı

*Əvvəli 1-ci səh.*

Tarixi qələbəmizlə başa çatan 44 günlük Vətən müharibəsi ölkəmizə marağı daha da artırıb. Hələ də dünyanın aparıcı kütləvi informasiya vasitələri bu müharibə barədə geniş məlumatlar verir. Hərb, siyasət və diplomatiya üzrə ekspertlər müxtəlif istiqamətlərdə müharibənin gedişini və nəticələrini təhlil edib qiymətləndirirlər.

Prezidentə verilən suallardan aydın olur ki, jurnalistləri maraqlandıran suallar çoxşaxəlidir. Belə ki, onlar Vətən müharibəsində qazandığımız qələbə, işğal nəticəsində törədilən vandalizm, bərpa-quruculuq işləri, Ermənistanın üçtərəfli bəyanata əməl edib-etməyəcəyi, məcburi köçkünlərin doğma yurdlarına qayıtması və s. ilə bağlı suallar səsləndirirdilər. Kütləvi informasiya vasitələri nümayəndələri mətbuat konfransından öncə işğaldan azad edilən ərazilərə getmiş və ermənilərin törətdikləri vəhşiliklərin şahidi olmuşlar. Özlərini dünyaya qədim və mədəni xalq kimi sırımaq istəyən ermənilərin törətdikləri dağıntılar onları heyrətləndirmişdi. Görünür, ermənilərin illərlə yalan danışdıqlarına artıq inanmışdılar. Həmin ərazilərin ermənilər tərəfindən vəhşicəsinə talan edilməsindən az qala şoka düşmüşdülər. Onlar bir çox münaqişələri görmüş jurnalistlər idi. Ancaq bu cür vandalizmin yəqin heç yerdə şahidi olmamışdılar.

Dövlət başçısı işğaldan azad edilən ərazilərdə dəhşətli dağıntıların olmasına baxmayaraq, orada yenidən geniş bərpa-quruculuq işlərinin aparılacağını jurnalistlərin diqqətinə çatdırdı. Bildirdi ki, bu ərazilərin yenidən bərpası üçün dövlət tərəfindən böyük layihələr hazırlanır. Bunun üçün bölgədə yeni infrastruktur qurulur. Füzuli hava limanının tikintisi məsələsinə toxunuldu. Həmçinin işğaldan azad olunan ərazilərdə quruculuq işlərinin sürətlə həyata keçirilməsinə ermənilərin basdırdıqları minaların mane olduğu vurğulandı. Bununla belə hava limanında uçuş-enmə zolaqları və aeroportun fəaliyyətini təmin edəcək naviqasiya sistemləri qısa müddətdə istifadəyə veriləcək. Bu, beynəlxalq hava limanı olacaq. Onun uçuş-enmə zolaqları ən ağır təyyarələr də daxil olmaqla bütün növ təyyarələri qəbul edə biləcək. Eləcə də Laçın və Zəngilanda yeni aeroportların tikintisinin proqnozlaşdırıldığı bildirilirdi.

Əlbəttə, kiçik bir ərazidə üç hava limanının tikilməsi dövlətin bu bölgəyə verdiyi əhəmiyyətdən irəli gəlir. Məqsəd işğaldan azad edilən torpaqların turizm imkanlarından səmərəli istifadə etmək, yerli əhalinin gediş-gəlişini asanlaşdırmaq, eyni zamanda bu ərazilərin bərpası üçün yükdaşımaların səmərəliliyini təmin etməkdir.

Dövlət başçısı jurnalistlərə tarixi qələbəmizdən sonra yaranan yeni situasiya barədə də məlumat verdi. Bildirdi ki, Ermənistanın işğalı üzündən 30 ildən çoxdur ki, Azərbaycanın Naxçıvan MR ilə quru yol əlaqəsi kəsilmişdi. İmzalanan üçtərəfli bəyanatdan sonra bu nəqliyyat dəhlizi təkcə ölkəmiz üçün deyil, eləcə də region üçün böyük əhəmiyyət qazanıb. Belə ki, Mehri dəhlizi bərpa edildikdən sonra Azərbaycan, Türkiyə, İran, Rusiya və Gürcüstanın iqtisadi əməkdaşlığı üçün yeni imkanlar açılacaq. Mehri dəhlizinin əhəmiyyəti bununla bitmir. Bu marşrut tezliklə Asiya ilə Avropa arasındakı yükdaşımalarda özünəməxsus yer tutacaq. Sözügedən xətt eyni zamanda “Şimal-cənub nəqliyyat dəhlizi”nin vacib bir sahəsinə çevriləcək. Bu da şimaldan Yaxın Şərqə və Fars körfəzinə yüklərin daşınması üçün yeni imkan yaradacaq. Dövlət başçısı bunları deməklə həm də dünyaya bir mesaj vermiş oldu. Yəni münaqişənin həlli təkcə ölkəmiz üçün deyil, həm də dünya üçün əhəmiyyətli bir hadisədir.

Prezident İlham Əliyev jurnalistlərin marağını nəzərə alaraq işğaldan azad olunan ərazilərə qayıdış və bərpa-quruculuq işləri barədə də geniş məlumat çatdırdı. Dövlət başçısı bildirdi ki, orada bərpa-quruculuq işləri aparılarkən ekologiyanın bərpasına, həmçinin ekoloji cəhətdən təmiz enerjinin istifadəsinə üstünlük veriləcək. Belə ki, bölgə bu sahədə böyük potensiala malikdir. Kəlbəcər-Laçın zonasında külək, Zəngilan-Cəbrayıl zonasında isə Günəş stansiyalarının tikilməsi “yaşıl enerji”dən istifadəyə imkan yaradacaq. Bununla yanaşı, Laçın, Qubadlı və Kəlbəcər rayonlarında çoxlu su elektrik stansiyaları mövcuddur. Onlar ermənilər tərəfindən dağıdılıb. Hazırda bu stansiyalarda bərpa işləri həyata keçirilir. Artıq Qubadlıdakı Güləbird Su Elektrik Stansiyası təmir olunaraq istifadəyə verilib.

İşğaldan azad olunan ərazilərdə yaşayan insanların əsas məşğuliyyəti kənd təsərrüfatıdır. Qeyd edək ki, bu regionun aqrar potensialı böyükdür. Həmin ərazilərdə kənd təsərrüfatının bərpasına xüsusi diqqət yetirilir. Artıq Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Tədqiqatlar Mərkəzi bölgənin bu sahədəki imkanlarını yeni şəraitə uyğun araşdıraraq dövlətə müvafiq təkliflər verib. Prezident mətbuat konfransında bildirdi ki, işğaldan azad olunan torpaqlardan ilk növbədə kənd təsərrüfatı sahəsində istifadə edilməyə başlanıb. Burada 7 min hektar sahədə payızlıq buğda əkilib. Cari ilin yayında işğaldan sonrakı ilk taxıl biçini həyata keçiriləcək.

Prezident İlham Əliyev jurnalistlərin ən çox maraqlandığı məsələrdən biri olan məcburi köçkünlərin doğma yurdlarına qayıdışı barədə sualları cavablandırarkən demişdir: “Bu barədə mən artıq demişəm. Minalardan təmizləmə prosesi başa çatdıqdan sonra və artıq bununla paralel olaraq biz bu işləri başlayırıq. Bu yaxınlarda “ağıllı kənd” layihəsi artıq gerçəkləşməyə başlamışdı. Zəngilan rayonunun üç kəndində - Birinci, İkinci, Üçüncü Ağalı kəndlərində bu layihə həyata keçiriləcək. Mən təlimat vermişəm ki, bu ilin sonuna qədər layihə tam başa çatsın. Yəni orada təqribən 1000-ə yaxın insan yerləşəcək. Bütün lazımi infrastruktur qurulacaq, əkin sahələri bərpa ediləcək və insanlar oraya qayıdacaqlar. Belə pilot layihələr çox ola bilər. Biz indi onun üzərində işləyirik”.

**Rüstəm KAMAL,**
**“Azərbaycan”**

# İşğaldan azad edilmiş ərazilərdə kompleks quruculuq işləri aparılacaq

*Əvvəli 1-ci səh.*

Daha sonra bildirilmişdir ki, Ermənistanda indi tamamilə böhranlı vəziyyət hökm sürür: “Mən onların daxili vəziyyəti ilə bağlı hər hansı bir şərh vermək istəməzdim. Prinsip etibarilə biz heç vaxt başqa ölkələrin daxili işlərinə qarışmırıq, xüsusilə indiki həssas məqamda. Ancaq müharibənin nəticələri dəyişməz olaraq qalır və qalacaq. Noyabrın 10-da imzalanmış bəyanat icra edilir və tam icra edilməlidir. O bəyanatın müddəalarının böyük hissəsi artıq icra edilibdir. Ancaq elə məsələlər var ki, onlar indi müzakirə mövzusudur. Ümid edirəm ki, Ermənistanda yaranmış mürəkkəb vəziyyətə baxmayaraq, noyabrın 10-da imzalanmış bəyanat icra ediləcək. Əks təqdirdə Ermənistan daha ağır duruma düşə bilər. Yəni Ermənistan qarşısında seçim o qədər də böyük deyil. Onlar yeni reallıqlarla barışmalıdırlar, hesablaşmalıdırlar. Biz yeni reallıqlar yaratmışıq”.

Jurnalistlərin suallarından məlum olmuşdur ki, müharibənin bitməsindən dörd aya yaxın vaxt keçməsinə baxmayaraq, hələ də ağır məğlubiyyətin acısını yaşayan Ermənistanda bəzi siyasətçilər hakimiyyətə gəlmək üçün müəyyən revanşist fikirlər səsləndirir, xaricdəki havadarlarının köməyi ilə hakimiyyəti ələ keçirib, ordunu gücləndirib yenidən müharibəyə başlamaq barədə düşünürlər. Məsələyə münasibət bildirən Prezident bu cür düşünənlərə açıq şəkildə xəbərdarlıq etmişdir: “Ermənistan siyasi dairələri anlamalıdırlar, hər hansı bir revanş və ya qisas cəhdləri Azərbaycan tərəfindən ciddi şəkildə cəzalandırılacaqdır. Biz hər hansı bir təhlükə görsək, bunu özümüzə ciddi təhlükə hesab etsək, buna dərhal cavab verəcəyik. Ona görə də mən xəbərdarlıq edirəm ki, burada hər hansı bir revanşizm və qisas cəhdləri olmamalıdır”.

Dövlət başçısı açıqlamasında onu da qeyd etmişdir ki, bu xəbərdarlığı erməni siyasətçiləri nəzərə almalıdırlar. Ermənistanda hakimiyyətdə təmsil olunanlar anlamalıdırlar ki, İkinci Qarabağ müharibəsində Azərbaycan Ordusunun endirdiyi zərbələr “böyük Ermənistan” uğrunda uydurma ideologiyanın fiaskosu ilə nəticələndi. Ermənistan davamlı inkişaf, dayanıqlı sülh istəyirsə, Azərbaycan Prezidentinin təşəbbüslərinə uyğun olaraq, iddialarından əl çəkməli və yeni reallıqlardan, əməkdaşlıq imkanlarından faydalanmalıdır.

İşğaldan azad edilmiş ərazilərdə məcburi köçkünlərin nə vaxt geri dönəcəyi və görüləcək işlərlə əlaqədar suallara açıqlama gətirən dövlət başçısı bildirmişdir ki, “ağıllı kənd” pilot layihələr hazırlanır. İşğaldan azad olunmuş ərazilərdə kompleks quruculuq və tikinti işləri aparılacaq. İlkin olaraq Zəngilan rayonunun Birinci, İkinci və Üçüncü Ağalı kəndlərində bu layihə həyata keçiriləcək. Lazımi infrastruktur yaradılacaq və bu kəndlərdə 1000-ə yaxın insan yerləşdiriləcək. Böyük şəhərlərə qayıdış məsələsinə toxunan Prezident İlham Əliyev qeyd edib ki, şəhərlərin baş planları tərtib edilməlidir: “Məsələn, Ağdam şəhəri. Müharibədən əvvəl Ağdamda haradasa 40 minə yaxın insan yaşayıb. İndi əhali artıq artıb, 50 mindən çox. Biz indi 50 min, bəlkə də 70 minlik bir şəhər planlaşdırmalıyıq. Biz bu şəhərin baş planını, infrastrukturunu inşa etməliyik, ondan sonra bunlar inşa edilməlidir. O cümlədən məktəblər, xəstəxanalar tikilməlidir. Bu, böyük bir zaman tələb edir. Yenə də deyirəm, bizim əsas yarışacağımız tərəfmüqabili zamandır. Çünki vəsait də var, bütün gücləri səfərbər etmişik. Amma zaman, əlbəttə ki, öz haqqını tələb edir. Mən hansısa bir tarix vermək istəməzdim. Halbuki mənim ağlımda tarixlər var ki, vaxtından əvvəl insanları həm sevindirməyim, həm də bəzilərini bəlkə də həyəcanlandırmayım. Amma inanın ki, ən qısa müddətdə mərhələli şəkildə biz insanlarımızı o bölgələrə qaytaracağıq. Eyni zamanda hazırda bütün azad edilmiş ərazilərdə, ilk növbədə, bərpa ediləcək kəndlərin də siyahısı hazırlanır, bu məsələ üzərində də biz fəal çalışırıq”.

Prezident jurnalistlərin suallarına cavablarında onu da vurğulayıb ki, Ağdam şəhəri 2-3 il ərzində tam bərpa oluna bilər: “Ancaq təbii ki, bundan əvvəl ərazi minalardan təmizlənməli və infrastruktur layihələri həyata keçirilməlidir. Bütün şəhərlərin enerji şəbəkəsi yaradılacaq və artıq büdcə proqramı təsdiq edilib”.

Azərbaycan Prezidentinin yerli və xarici jurnalistlər üçün keçirdiyi mətbuat konfransını bir neçə dildə aparması, jurnalistlərin bütün suallarını əhatəli cavablandırması iştirakçıları heyrətləndirmişdi. Hətta canlı yayımla dünya ictimaiyyətinin diqqətinə çatdırılan mətbuat konfransının gedişindəcə Böyük Britaniyadan olan jurnalist, Türk-İngilis Qəzetçilər Birliyinin sədr müavini Aynur Tattersal ölkə başçısı İlham Əliyevə ingilis dilində sual verərkən “Düşünürəm ki, mətbuat konfransının uzunluğuna görə Siz rekorda imza atdınız, cənab Prezident! Mən 25 ildir jurnalistika ilə məşğul oluram, ancaq hər hansı Prezidentin dörd dildə bu cür mətbuat konfransı aparmasının şahidi olmamışdım”, - deyə bu ilkə görə dövlət başçısını təbrik etmişdir.

Media nümayəndələri işğaldan azad edilmiş Füzuli rayonunda olmuşlar. Burada ərazilərin minalardan təmizlənmə işlərini müşahidə etmişdilər. Eyni zamanda Prezident İlham Əliyevin haqqında danışdığı, Füzulidə fəaliyyətə başlayacaq beynəlxalq hava limanının tikintisi ilə bağlı görülən işlərlə tanış olmuşdular. Bütün bu təəssüratlardan sonra media nümayəndələri yenidən Azərbaycana gəlmək arzusu ilə məmnunluqlarını bildirmişlər.

**Rəhman SALMANLI,**
**“Azərbaycan”**

## “La Vanguardia” qəzeti: “Müharibədən sonra Qarabağa qayıdış”

Azərbaycan Prezidenti İlham Əliyevin fevralın 26-da yerli və xarici media nümayəndələri üçün keçirdiyi mətbuat konfransında iştirak edən jurnalistlər ölkəmizlə bağlı həqiqətləri işıqlandırmaqda davam edirlər. Həmin jurnalistlər işğaldan azad olunmuş rayonlarımıza da səfər edib, erməni vəhşiliyini gözləri ilə görüb və bu barədə dünya ictimaiyyətini ətraflı məlumatlandırırlar. Növbəti belə məqalə İspaniyanın nüfuzlu “La Vanguardia” qəzetində dərc olunub.

AZƏRTAC Jordi Joan Banosun müəllifi olduğu “Müharibədən sonra Qarabağa qayıdış” adlı məqalənin xülasəsini təqdim edir.

Doğma yurdlarından didərgin düşmüş azərbaycanlılar evlərinə qayıtmaq üçün genişmiqyaslı təmir-bərpa işlərinin bitməsini gözləyirlər.

Yüz minlərlə köçkün bir vaxtlar onlara mənsub olan diyarlarına - Qarabağa qayıtmaq istəyirlər və 30 illik həsrətdən sonra səbirsizlənirlər. Onları oraya tələsdirən 3-4 divardan savayı, bir izin qalmadığı dədə-baba yurdlarını tamamilə yenidən inşa etmək istəyidir. Ancaq, ilk növbədə, Azərbaycan dövləti bu əraziləri minalardan təmizləməlidir, bu, minlərlə kilometr ərazi deməkdir. “Minalar hər tərəfdədir. Ermənistan minalanmış sahələrin xəritəsini verməkdən boyun qaçırır və ya belə bir xəritənin mövcud olmadığını iddia edir”, - deyə Azərbaycan tərəfi bildirir.

Beləliklə, 30 il əkilib-becərilmədən daş dövrünə geri qayıtmış bu ərazilərdə ilk iş elektrik dirəklərinin, yüksəkgərginlikli qüllələrin qurulması oldu. Hazırda ilk elektrik stansiyası inşa edilir.

Bir müddət bundan öncə yalnız xarabalıq və müharibə izlərinin olduğu bu ərazilərdə indi irihəcmli işlər gedir. Məsələn, minalardan təmizləmə, təmizlənmiş ərazilərdə elektrik xətlərinin çəkilişi və yolların salınması. Füzuli rayonunda “Beynəlxalq hava limanı” yazısı ilə rastlaşırıq.

“Azərbaycan Hava Yolları”nın nümayəndəsi Füzulidə tikilən hava limanının ölkənin ən böyük aeroportlarından biri olacağını bildirib. Hansı ki ermənilər bu əraziləri - Füzuli və Ağdam rayonlarının bir hissəsini işğal zamanı viran qoyublar.

Xocavənd rayonunun azad olunmuş Böyük Tağlar kəndində Azərbaycan və Türkiyə bayraqlarının əks olunduğu lövhələr diqqəti cəlb edir.

On dörd yaşına qədər Ağdamda yaşamış və 1990-cı illərin əvvəllərinə kimi böyük əksəriyyəti azərbaycanlılardan ibarət olmuş şəhərin girişində məyus olmuş tur-bələdçimiz qarışıq hisslər keçirdiyini söyləyir: “Bu yerlərdən məcburi köçürülmüş azərbaycanlılar artıq geri qayıda bilərlər. Onların evləri Suriyadan və ya Livandan buraya köçürülmüş ermənilər tərəfindən zəbt olunmuşdu”.


LA VANGUARDIA
Internacional
Regreso a Nagorno-Karabaj tras la guerra
Hágase la luz, ha dicho Azerbaiyán. Cientos de miles de desplazados internos quieren regresar a la tierra prometida que un día fue suya, en Karabaj. Y tienen prisa, después de tres décadas en el limbo. Les urge porque de sus casas ya no queda nada -tres o cuatro paredes a medio derruir, con suerte- y habrá que rehacerlo absolutamente todo. Aunque antes Bakú tendrá que peinar la muerte a plazos escondida en campos y acenes -
¿Quieres Co IQ?

Böyük Tağlar kəndi eyni zamanda Avrasiyanın ən qədim mağaraları ilə məşhurdur.

Zəfər yolu azərbaycanlılar üçün qeyri-adi bir şəhər olan Şuşaya gedən yoldur.

Azərbaycan bu günlərdə 26 fevral tarixini - müharibənin ən qanlı, amansız səhifəsi olan Xocalı faciəsini anıb. İyirmi doqquz il əvvəl böyük əksəriyyəti azərbaycanlılardan ibarət olan Xocalı şəhəri etnik təmizləməyə məruz qalıb. Altı min sakin qaçmağa məcbur olub. Hər 10 nəfərdən biri öldürülüb.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin idarə heyətinin sədri Fərid Şəfiyev deyir ki, Xocalı faciəsinin müəllifləri heç vaxt cəzalandırılmadılar. Bu səbəbdən yalnız barış deyil, həm də Balkanlarda, Sierra Leonada və ya Ruandada olduğu kimi, ədalət də vacibdir. Bütün törədilənlərin cəzasız qalması isə Ermənistanın Gəncədə mülki şəxsləri bombardman etməsinə gətirib çıxardı.

Beş yaşında məcburi köçkün düşən Samira Hüseynova deyir ki, yalnız ədalət qalib gəlsə, sakitlik tapacağıq.

Bölgədə bərpa işlərinin tam həyata keçirilməsini ərazilərə basdırılmış minalar məhdudlaşdırır. Təlim keçmiş itləri olan minatəmizləyənlər yeganə təhlükəsiz ərazi sayılan asfalt yollarla yanaşı, digər əraziləri də yoxlayırlar.

Şuşaya çəkilən və Zəfər adlanan yolun azərbaycanlılar üçün böyük əhəmiyyəti var.

Heç şübhəsiz, Azərbaycan öz ərazisinin ən gözəl guşəsini azad etdi. Bu torpaqlar azərbaycanlıların əcdadlarının dəfn olunduqları və uşaqlıq xəyallarının onları gözlədiyi yerlərdir.

# Diaspor təşkilatları Ermənistana maliyyə yardımını dayandırıblar

*Əvvəli 1-ci səh.*

“Bunun səbəbi isə baş nazirin alçaldıcı məğlubiyyətə görə ehtiyatsız şəkildə öz günahını ordunun üzərinə atmaq cəhdidir”, - deyə yazıb.

Ter-Petrosyan generalların özlərini “təmkinli aparmasını” və bəzi qüvvələrin ordunu antikonstitusion hərəkətlərə çəkməsinə imkan verməməsini də alqışlayıb. O, hərbçilərin özünü belə aparmasını “dövlətçilik düşüncəsinin nümunəsi” adlandırır və bildirir ki, generalların hərəkətləri xalqın həqiqi dəstəyinə layiqdir.

Ermənistanda erkən seçkilərlə bağlı müzakirələr davam edir. Müxalif “İşıqlı Ermənistan” partiyasının lideri Edmon Marukyan deyib ki, erkən seçkilər keçirilməsi təklifini verdikdən sonra müəyyən qüvvələr onu və komandasını təqib etməyə başlayıblar. Bu barədə şəxsi “Facebook” səhifəsində paylaşım edən Edmon Marukyan hesab edir ki, “Telegram” kanallarında və mediada “sifarişli” xəbərlərin arxasında ölkədə hərbi çevriliş etmək istəyənlər dayanır. Onun sözlərinə görə, son günlər ona və komandasına qarşı əməlli-başlı kampaniya başladılıb.

“Söhbət “Telegram” kanalında hansısa “sövdələşmə” barədə məqalələrə pul xərcləyən və sonra da həmin xəbərləri öz mediasında yayımlayanlardan gedir. Özü də xalqdan oğurlanan pullar hesabına”, - deyə Manukyan əminliklə vurğulayıb. Onun qənaətincə, ordunun tankları paytaxta gətirəcəyinə və ölkədə hakimiyyəti ələ keçirəcəyinə ümid edən qüvvələr var: “Lakin bu, hərbi çevriliş kimi qiymətləndiriləcək”.

Müxalifətçi həmçinin Ermənistanın baş naziri Nikol Paşinyanla silahlı qüvvələrin baş qərargahı arasında qarşıdurmanın davam etdiyini, böhranın dərinləşdiyini və bunun nəticəsində ölkədə geriləmənin olduğunu bildirib. Partiya sədrinin fikrincə, hakimiyyətin bir çox nümayəndələri uduzacaqlarını başa düşərək seçkilərin əleyhinə çıxırlar. “Eyni zamanda sadəcə seçkilərə hazır olmayan müxalifət qüvvələri var. Heç kim seçkilərə hazır deyil, ancaq böhranlı vəziyyətdən çıxmaq lazımdır. Hakimiyyəti dəyişməyin yeganə yolu isə seçkilərdir. Başqa yol yoxdur, əks halda qurbanlar olacaq”, - deyə erməni siyasətçi xəbərdarlıq edib.

Paşinyanı devirməyə çalışan qüvvələrin əsas arqumentlərindən biri ağır sosial-iqtisadi vəziyyətdir. Ermənistan mətbuatı yazır ki, yaranmış vəziyyət ölkə əhalisinin qul kimi yaşadığını göstərir. Bildirilir ki, Ermənistanda qəbul edilən bütün qanunlar və dövlət proqramları yalnız bir qrup hakimiyyət nümayəndəsinin maraqlarına xidmət edir. Ölkədə keçirilmiş parlament və prezident seçkiləri xalqın deyil, hakim dairələrin iradəsinin nəticəsi olur. Ermənistanın iri müəssisələri xarici iş adamlarına satılıb. Kriminallaşmış hakimiyyətdən ehtiyat edən xarici şirkətlər Ermənistana investisiya qoymaq istəmirlər.

“4rd.am” saytının yazdığına görə, Ermənistanda fəaliyyət göstərən hakimiyyət strukturlarının heç biri legitim deyil. Qeyd olunur ki, diaspor təşkilatlarının hesabına büdcəni dolduran hakimiyyət indiyədək bir dənə də olsun iqtisadi layihə həyata keçirməyib. Müharibədəki məğlubiyyətdən sonra isə diaspor təşkilatları maliyyə yardımlarını azaldıb və ya dayandırıblar. Onlar artıq humanitar məqsədlər üçün vəsait ayırmırlar.

Proseslərin axarı Ermənistanın daha böyük problemlər bataqlığına sürükləndiyini və dövlətçiliyinin böhranlar içərisində məhvə doğru getdiyini göstərir.

**Elçin CƏFƏROV,**
**“Azərbaycan”**

# Dünənin, bugünün və sabahın partiyası







## Xalqın etimad ünvanı

Yeni Azərbaycan Partiyasının VII qurultayı Azərbaycanda ötən həftənin əsas siyasi hadisəsi kimi yadda qaldı. Partiya fəaliyyətinin təkmilləşdirilməsi və bu istiqamətdə daha çevik mexanizmlərin formalaşdırılması istiqamətində mühüm qərarların qəbul olunduğu qurultayın əsas məqamı Prezident, partiyamızın sədri İlham Əliyevin çıxışı oldu.



YAP 29 il əvvəl xalqımızın Ulu Öndəri, əbədiyaşar şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə müxalifət partiyası kimi yaranıb. Lakin YAP həmin dövrdə meydanlarda və iqtidarda olan bir sıra partiyalardan fərqli olaraq xalqa və dövlətə müxalif deyildi. Siyasi zərurət və xalqın sosial sifarişi olaraq təsis edilən YAP yarıtmaz siyasət yürüdən iqtidara, dövlətçiliyimizə təhlükə yaradan qüvvələrə qarşı müxalifətdə idi. Sağlam və sivil siyasi dəyərlər üzərində formalaşmasının, xalqın və dövlətə xidmət məramını əsas tutmasının nəticəsi idi ki, yarandıqdan cəmi bir il sonra YAP artıq hakim partiya statusunu almışdı. 1993-cü ildən ötən müddətdə ölkəmizdə keçirilən bütün seçkilərin qalibləri isə YAP-ın namizədləri olmuşdular. Bu, YAP-ın cəmiyyətdəki əhəmiyyətli yerinin, dövlətçiliyimizin möhkəmləndirilməsi, ölkəmizin inkişafı istiqamətində həyata keçirilən proqramların nəticəsi olaraq insanların bu təşkilata olan böyük etimadının təcəssümüdür.

2003-cü ildən sonra Ulu Öndər Heydər Əliyevin siyasi yolunu layiqincə davam etdirən möhtərəm Prezident İlham Əliyevin ötən 18 ildəki əzmkar fəaliyyəti Azərbaycanın böyük inkişaf yolu keçməsini təmin etməklə yanaşı, YAP-ın cəmiyyətimizdəki alternativsiz siyasi qüvvə kimi yerini və statusunu möhkəmləndirib. Bu baxımdan YAP-ın güclü və aparıcı siyasi partiya kimi özünü göstərməsi həm də İlham Əliyevin yüksək liderlik keyfiyyətləri ilə şərtlənir.

Cənab İlham Əliyevin qurultayda çıxışını dinlədikcə bir daha YAP-ın dövlətimiz və xalqımız qarşısındakı xidmətləri gözümüz önündə canlandı. Bu partiyanın sıralarında olmağımızdan qürur hissi keçirdik.

YAP-ın altıncı qurultayı 2018-ci ilin fevral ayında keçirilmişdi. Ötən 3 ildə Azərbaycanda olduqca mühüm pozitiv dəyişikliklər baş verib. Bu dövrdə həyata keçirilən islahatlar respublikamızın siyasi və sosial həyatında, idarəetmədə bir sıra yeniliklərlə yadda qalıb. Məhkəmə-hüquq islahatları ədalət mühakiməsinin keyfiyyətini daha da artırıb. Bu islahatların hər biri, idarəetmədəki keyfiyyət dəyişiklikləri vətəndaş məmnuniyyətinə yol açıb, cəmiyyətimizdəki sosial və siyasi həmrəyliyi daha da gücləndirib. Dövlət başçısı çıxışında bu məqamlara da toxundu. Təbii ki, ötən 3 ildə cəmyyətimizə daha yüksək ovqat bəxş edən bu uğurlara görə bir daha sevindik.

Əlbəttə ki, bu dövrün ən böyük uğuru və ən mühüm hadisəsi Ermənistanın işğal siyasətinə son qoyulması, Azərbaycanın ərazi bütövlüyünün bərpası oldu. Prezident İlham Əliyevin qətiyyəti, ordumuzun rəşadəti Azərbaycanı qalib dövlətə çevirdi, qürurumuzu yüksəltdi. Bu Qələbə xalqımızın həmrəyliyinin təntənəsi oldu.

Cəmiyyətimizdə baş verən yeniliklər, Vətən müharibəsindəki Qələbə həm də sıralarında təmsil olunduğum Yeni Azərbaycan Partiyasının uğurlarıdır. Bütün bunlar YAP-ın hakim və aparıcı partiya olaraq mövqelərini daha da möhkəmləndirir. Eyni zamanda ölkəmizdə hər bir sahədə qazanılan nailiyyət insanların YAP-a olan etimadını yüksəldir.

Prezident İlham Əliyevin çıxışı həm də proqram xarakterli idi. Bu mənada dövlət başçısının toxunduğu məsələlər həm də YAP-ın fəaliyyətində yeni istiqamətləri, qarşıdakı vəzifələri müəyyən etdi. Qurultayda qəbul olunan qərarlar isə YAP-ın müasir siyasi dünyagörüşünə malik olan partiya olduğunu bir daha təsdiqlədi. YAP-ın İdarə Heyətinin yeni tərkibi isə partiyamızın gənclərə olan etimadının növbəti nümunəsidir. Yeni tərkibdə formalaşan İdarə Heyəti və yeni Nizamnamənin qəbulu partiya fəaliyyətinin uğurla həyata keçirilməsinə layiqli töhfə verəcək.

Bütövlükdə VII qurultay göstərdi ki, YAP öz məramını uğurla həyata keçirir. Ulu Öndərin müəyyən etdiyi bu missiya cənab İlham Əliyevin rəhbərliyi ilə şərəflə və fədakarlıqla, ən əsası isə alternativsiz siyasi kursla müşayiət olunur. Bütün bunlar həm də ondan xəbər verir ki, YAP hər zaman xalqın yeganə etimad ünvanı olacaq və hakim siyasi təşkilat statusunu saxlayacaq.

***Müşfiq MƏMMƏDLİ,***
***Milli Məclisin deputatı***

## Cənubi Qafqazın ən güclü partiyası



Yeni Azərbaycan Partiyası Azərbaycanın siyasi həyatının bütün mərhələlərində mühüm tarixi missiya daşıyıb. 29 il öncə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə müxalif kimi yaranan partiyanın Azərbaycanın xilas olması ilə bağlı cəsarətli təşəbbüslərlə çıxış etməsi və dövlətçilik ideyalarını rəhbər tutması tarixi zərurət idi.

Partiyanın inkişafı və güclənməsi Ulu Öndər Heydər Əliyevin ideyaları, onun nüfuzu, uzaqgörənliyi və dövlətçiliklə bağlı zəngin təcrübəsi və məsləhətləri əsasında baş verib. YAP qısa müddətdə müxalifət partiyasından iqtidar partiyasına və eyni zamanda Cənubi Qafqazın ən böyük siyasi partiyasına çevrilib.

Son 17 ildə Azərbaycanın bütövlükdə inkişafı, əldə etdiyimiz uğurlar isə YAP sədri cənab İlham Əliyevin yorulmaz, fədakar fəaliyyəti, onun cəsarəti və eyni zamanda uzaqgörənliyi sayəsində mümkün olub. Azərbaycan bu illər ərzində kifayət qədər tarixi uğurlar əldə edib. Bu nailiyyətlər həm iqtisadiyyatda, həm sosial sahədə, həm də Azərbaycanın beynəlxalq nüfuzunun artması sayəsindədir. Eyni zamanda bu uğurlar içərisində ölkədə əldə edilmiş milli birlik və bu birliyin nəticəsində uzun illər ərzində işğal altında olan torpaqlarımızın azad olunmasını xüsusilə vurğulamaq lazımdır.

Umumiyyətlə, son 17 ildə Azərbaycanda 4 mühüm nəticəyə nail olunub. Bunlardan birincisi Azərbaycanda dayanıqlı əsaslara söykənən birliyin yaranmasıdır. Bu, xalq-iqtidar birliyi, eyni zamanda müxtəlif millətlərin və dinlərin həmrəyliyidir. Azərbaycanda bu gün hər bir xalqın nümayəndəsi kifayət qədər rahat yaşayır, öz dilində danışır, öz dininə sitayiş edir və yaxud hər hansı bir siyasi partiyanın təmsilçiləri öz fikirlərini azad şəkildə ifadə edə bilir. YAP-ın VII qurultayında 6 siyasi partiyanın YAP-a qoşulması da sözsüz ki, bu birliyin, həmrəyliyin yaxşı nümunəsidir. Bu həm də YAP-ın nüfuzunun artmasının, xalqın maraqlarına xidmət etməsinin, iqtidara qarşı olan müsbət ictimai fikrin və ən ümdəsi, partiyanın sədri cənab İlham Əliyevə və sədrin birinci müavini Mehriban xanım Əliyevaya olan ümumxalq məhəbbətinin daha da artmasının göstəricisidir.

İkinci mühüm nəticə iqtisadiyyatda əldə edilmiş uğurlarla bağlıdır. Son 17 ildə Azərbaycan iqtisadiyyatı 3 dəfədən çox artıb. Bu gün Cənubi Qafqazın iqtisadiyyatının 75 faizi Azərbaycana aiddir. Belə ki, regionda Azərbaycanın iştirakı olmadan reallaşan hər hansı bir layihə yoxdur. Azərbaycan iqtisadi baxımdan regionda ən müstəqil bir ölkədir. İqtisadi, maliyyə resurslarımız ölkəmizin müstəqilliyini təmin edəcək qədər güclüdür, yetərlidir və bundan sonra da Azərbaycanın müstəqilliyinin, qüdrətinin güclənməsini təmin edəcək.

Üçüncü nəticə Azərbaycanın beynəlxalq nüfuzu ilə bağlıdır. Ölkəmiz müstəqillik əldə etdiyi illərdə hər birimizin arzusu Azərbaycanın daha çox tanınması, xarici ölkələrdə xalqımızın milli, mənəvi dəyərlərinin bilinməsi, məşhur şeirdə deyildiyi kimi, "İmzalarımızın imzalar arasında olması" idi. Hər zaman Azərbaycan deyəndə onun tanınmasını çox arzulayırdıq. Biz artıq bu arzulara çatmışıq. Bu gün Azərbaycan dünyada kifayət qədər nüfuzlu, yüksək milli dəyərləri olan, qurub-yaradan, güclü və müstəqil bir ölkə kimi qəbul olunur.

Azərbaycan Qoşulmama Hərəkatının sədridir. Azərbaycan BMT Təhlükəsizlik Şurasına rəhbərlik edən ölkələrdən biri olub. Avropa Şurasında, ATƏT-də, Avropa İttifaqında müstəqil və yaradıcı mövqeyi olan çox az saylı ölkələrdən biridir.

Dördüncü nəticə isə uzun illərdir ki, Azərbaycan xalqının vahid bir amalı uğrunda aparılan Vətən müharibəsindən tam qalib çıxmağımızdır. İşğal olunmuş torpaqlarımızın Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə erməni faşizminin tapdağından azad olunması milli qürurumuzun dirçəlməsi, xalqın başının ucaldılması ilə nəticələndi. Bu mənada Azərbaycan 21-ci əsrdə dünyada yeni reallıqlar yaradan qalib xalq kimi, regionda daha çox hesablaşılan güclü ölkə kimi qəbul olunur.

Bu dörd istiqamətdə əldə etdiyimiz mühüm nəticələr həm də YAP rəhbəri kimi Prezident İlham Əliyevin və eyni zamanda bu amallara xidmət edən hər bir azərbaycanlının əməyinin nəticəsidir. Biz artıq yeni reallıqlar dövrünə daxil olmuşuq. Bu reallıqları biz öz gücümüzlə yaratdıq. Ona görə də yeni dövrün əsas söz sahibi Azərbaycandır.

Xalq və dövlət olaraq bizi düşündürən əsas məsələlər bunlardan ibarətdir: bundan sonra bizi hansı çağırışlar gözləyir, keçmişdə hansı səhvlərimiz olub, bu səhvlərin bir daha təkrar olunmaması üçün hansı addımlar atmalıyıq, dövlətimizin daha da güclənməsi üçün hansı istiqamətdə daha çox inkişaf etməliyik, xaricdən gələn təhlükələrə necə cavab verməliyik və s. Partiyanın VII qurultayında cənab Prezident bütün bu istiqamətlərdə kifayət qədər açıq və geniş bir nitq söylədi, gələcək fəaliyyət istiqamətlərini göstərdi.

Eyni zamanda partiyanın növbəti üç ay ərzində proqramının hazırlanması və bu məsələlərin proqramda öz əksini tapması Prezident tərəfindən qarşıya bir tapşırıq kimi qoyuldu. Əminik ki, partiyanın yeni seçilən İdarə Heyəti partiya resurslarının daha da artmasına, qarşıya qoyulan hədəflərə nail olmaq üçün dinamizmin, funksionallığın daha da yüksəlməsinə çalışacaq.

YAP rəhbərliyi dünyada baş verən ən son yeniliklər haqqında düşünür, onları təhlil edir və bundan irəli gələn çağırışlara cavab vermək üçün partiyanın yenilənməsi və onun qarşısında duran məqsədlərə çatmaq naminə yeni resursların tapılması istiqamətində fəaliyyətlə məşğuldur. Bu kifayət qədər təqdirəlayiq haldır. Dövlət başçısının dediyi kimi, biz böyük tarixi uğurlar əldə etmişik və eyni zamanda bundan sonra hansı uğurlar əldə edəcəyimizlə bağlı düşünməliyik. Təbii ki, burada ən böyük rəqibimiz zamandır. Çünki zaman sürətlə gedir, dövr sürətlə dəyişir. Belə bir zamanda ölkəmiz qarşısında da çox mühüm çağırışlar dayanır. Tarix göstərir ki, indiki dövrdə zamanla ayaqlaşmasaq, biz gələcəkdə bir çox məsələlərdə geridə qala bilərik. Aparıcı partiya kimi bu barədə düşünmək bizim vəzifə borcumuzdur. Bu eyni zamanda bir missiyadır. Cənab Prezidentin verdiyi tapşırıqların bir çoxu həm də bu missiya ilə bağlıdır.

Bəşəriyyətin qədəm qoyduğu 4-cü sənaye inqilabı bütövlükdə insan münasibətlərini dəyişir. Təkcə partiyaların yox, insanlar arasında geniş ünsiyyətin qurulmasının tarixinə baxsaq görərik ki, kollektiv iştirak - dəyərləri paylaşmaq, informasiyanın daha çox insanlar arasında yayılmasını təmin edən alət internetdir. Bu cəhətdən baxsaq belə bir fikir yaranır ki, bu gün siyasi partiyaların ən böyük rəqibi əslində siyasi səhnənin yeni aktorlarıdır. Bu aktorlar internet platformaları-bloqqerlik fəaliyyəti, insanların öz fikirlərini çox qısa müddətdə milyonlara yaymaq bacarığıdır ki, bu, tamamilə yeni bir reallıqdır. İndi nəinki Azərbaycanda, bütün dünyada siyasi partiyalar qarşısında bu çağırış durur. Birincisi, biz bu reallığı daha çox araşdırmalı, qəbul etməli, onun üstün və mənfi cəhətlərini bilməliyik, bu alətdən öz işimizdə daha çox istifadə etməyi bacarmalıyıq. Digər tərəfdən isə insanların hansı informasiyaları düzgün, hansı informasiyaları yalan olduğunu seçmək qabiliyyətini artırmalıyıq. Bu eyni zamanda dövlətin qarşısında duran çox mühüm bir vəzifədir.

Bu gün ideyaların, dəyərlərin yayılmasında ən yeni metod olan rəqəmsal vasitələri daha çox qavramaq, bundan daha çox istifadə etmək, eyni zamanda ən önəmli məsələlərdən biri olan yeni məzmun və yeni gündəliyin yaradılması qarşımızda duran əsas çağırışlardandır. YAP qeyd etdiyimiz bu məsələlərə nail olmaqla Azərbaycanda daim müasir texnologiyalardan istifadə edə bilən, eyni zamanda müasir texnologiyalar vasitəsilə yeni gündəlik yarada bilən, yeni ideyalar və dəyərlər yayan bir partiya olmağı qarşısına hədəf qoyub.

YAP-ın qəbul etdiyi qərarlar eyni zamanda partiyada olan siyasi ardıcıllığın bariz bir nümunəsidir. Partiyada yeni Veteranlar Şurası yaradıldı. Onların təcrübəsindən istifadə etmək, gənc qüvvələr vasitəsilə bu təcrübənin yeni metodlarla və dəyərlərlə yayılmasını təmin etmək olduqca vacibdir.

Əminəm ki, YAP partiyanın sədri tərəfindən qarşıya qoyulan hədəflərə çatmaqla Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi "Gələcəyin partiyası olmaq" missiyasını əzmlə davam etdirəcək.

***Tahir MİRKİŞİLİ,***
***Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri***

## YAP yeni strategiyasını müəyyənləşdirdi

### Cənubi Qafqazın ən böyük siyasi təşkilatı hər zamankı kimi, demokratik ənənələrin inkişafına böyük töhfə verir

*Əvvəli 1-ci səh.*



Ölkəmizin dinamik inkişafı, modernləşməsi, həyatımızın bütün sahələrində dəyişikliklərin əsasının qoyulması da insanlarda İlham Əliyevin həyata keçirdiyi siyasətə böyük inam formalaşdırıb.

Prezident, YAP-ın sədri İlham Əliyev qurultayda geniş, dərin məzmunlu və proqram xarakterli çıxış edərək əldə edilən uğurları, aparılan hərtərəfli islahatları dəyərləndirdi və gələcək fəaliyyətlə bağlı istiqamətləri, konturları göstərdi.

Azərbaycanın genişmiqyaslı islahatlar aparan ölkə olduğunu bildirən Prezident öncə son 3 il ərzində həyata keçirilən mütərəqqi işləri yüksək qiymətləndirərək partiyanın VII qurultayının keçirilməsi zərurətini yaranmış yeni reallıqların tələbi kimi dəyərləndirdi.

Bu gün sıralarında 760 580 insanı birləşdirən YAP-ın fəaliyyəti, ideyaları, apardığı siyasət göz önündədir.

Gələn il yaranmasının 30 illiyi tamam olacaq partiya ötən müddət ərzində uğurla inkişaf edib və bütün seçkilərdə - həm parlament, həm prezident seçkilərində böyük səs çoxluğu ilə qalib gəlib. Bu gün Azərbaycanda YAP-a rəqib ola biləcək hər hansı bir siyasi qüvvə mövcud deyil. Prezidentin də söylədiyi kimi, YAP sözün əsl mənasında ümumxalq partiyasına çevrilib. Cəmiyyətimizin bütün təbəqələri hakim partiyada birləşib. YAP nəinki Azərbaycanın, Cənubi Qafqazın ən böyük siyasi təşkilatıdır. Partiyanın böyük ənənələri var.

VII qurultayda xeyli yeniliklər baş verdi. Ona görə də deyə bilərik ki, partiya yeniləşmiş formatda daha fəal olacaq. İlham Əliyev partiyanın rəhbər orqanlarında yeni təmsil olunanlar qarşısında tələblər də qoydu. Bildirdi ki, onlar partiyanın bundan sonra da ölkənin aparıcı siyasi qüvvəsi olaraq qalması üçün fəal olmalı, partiyanın fəaliyyətində mühüm rol oynamalı, ümumi işlərə töhfə verməlidirlər.

### Dialoq mühiti dərinləşir, demokratik ənənələr şaxələnir

Hakim partiyanın ali toplantısında 6 siyasi partiyanın YAP-a qoşulmasına dair qərar qəbul edilməsi də mühüm hadisə idi. Bu, siyasi həmrəyliyin, milli birliyin əyani təzahürü oldu. Partiyaların YAP-a birləşməsi cəmiyyətdə iqtidara qarşı olan müsbət münasibətin və inamın göstəricisi kimi də qiymətləndirilə bilər. Əlbəttə ki, bu, ölkədə dialoq mühitinin dərinləşməsinə və demokratik ənənələrin şaxələnməsinə xidmət edəcək.

Prezident də bunu çox önəmli, əlamətdar hadisə adlandıraraq ölkədə siyasi sistemin təkmilləşdirilməsi istiqamətində atılan növbəti addım kimi qiymətləndirdi. Bu, eyni zamanda göstərir ki, partiyanın məramı, proqramı, fəaliyyəti və əldə etdiyi nailiyyətlər dost partiyalar üçün də cəlbedicidir.

Yeni partiyaların YAP-a birləşməsi əlbəttə ki, təşkilatı daha da gücləndirəcək və yeni qərarların qəbulunu, mühüm addımların atılmasını şərtləndirəcək. Partiya sədri də hesab edir ki, bütün bunlar nəzərə alınaraq təşkilatın yeni proqramı hazırlanmalıdır. Bu proqram yeni dövrlə bağlı bütün məsələləri özündə ehtiva etməlidir. Bu səbəbdən də İlham Əliyev İdarə Heyətinə 3 ay ərzində partiyanın yeni proqramının hazırlanması ilə bağlı tapşırıq verdi.

### Uzunmüddətli, dayanıqlı inkişaf təmin olunacaq

Qurultayda yeni hədəfləri, qarşıda duran vəzifələri müəyyənləşdirən İlham Əliyev bir daha bəyan etdi ki, Azərbaycan dünyada tam müstəqil siyasət yürüdən ölkədir. Heç kim Azərbaycanla diktə dili ilə danışa bilməz. Bu il müstəqilliyinin 30 illiyini qeyd edəcək Azərbaycan indiyədək heç kimə hesabat verməyib, bundan sonra da bu siyasət davam etdiriləcək.

Müstəqilliyimizin 30 illiyini Qələbə qazanmış, Zəfər çalmış xalq kimi, dövlət kimi qeyd edəcəyik. Son illərin təcrübəsi göstərdi ki, bütün cəhdlərə baxmayaraq, heç kim Azərbaycanı öz müstəqil yolundan döndərə bilmədi. Prezident də vurğuladı ki, bütün cəhdlər puç olub və bundan sonra da istənilən təxribata layiqli cavab veriləcək: "Biz müstəqil siyasət apararaq bütün bu cəhdləri alt-üst edirik. Buna görə müstəqilliyin bundan sonra da möhkəmləndirilməsi işində partiyamız və bütün cəmiyyətimiz fəal olmalıdır".

Bu həqiqətdir ki, İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilən milli həmrəylik siyasəti, həmçinin Vətən müharibəsində qazanılmış Qələbə ölkədə milli birliyi daha da möhkəmləndirib. Prezidentin həyata keçirdiyi mütərəqqi islahatlar isə xalq tərəfindən yüksək qiymətləndirilir. Bu da onu deməyə əsas verir ki, Azərbaycanda bundan sonra da uzunmüddətli, dayanıqlı inkişaf təmin olunacaq. Çünki görülən işlər və İlham Əliyevin yürütdüyü qətiyyətli, prinsipial, uzaqgörən siyasət yeganə düzgün siyasətdir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

◆ Qarabağdan reportaj





# Ağdamda zəfər tonqalı qalandı

## İlham Əliyevin azad etdiyi Qarabağdakı Novruz alovunun şəfəqi yenidən canlanan həyatın rəmzinə çevrildi





*Əvvəli 1-ci səh.*

Bir qərinəyə yaxın idi ki, düşmən tapdağı altında inləyən Qarabağımız bu bayram tonqallarının istisinə-tüstüsünə həsrət qalmışdı.

Yağı düşmən dağ çəkirdi yurdumuzun bağrına...

Amma indi başqa ab-hava var doğma Qarabağımızda. İllərin həsrətindən, qubarından, nisgilindən sonra Qarabağın tutqun üzü açılıb, başındakı çən-duman dağılıb. Çünki Müzəffər Ali Baş Komandan İlham Əliyevin "dəmir yumruğu" və rəşadətli Ordumuz müqəddəs torpaqlarımızda yerləşən düşmənin başını əzdi. 44 günlük Vətən müharibəsindəki şanlı Qələbə torpaqlarımıza azadlıq gətirdi. İndi xarı bülbül dil açıb nəğmə deyir Qarabağda...

Bu bahar elimizə bir başqa gözəllik, bir başqa bar-bərəkətlə qədəm qoyub. Doğma Qarabağımızda yenidən çal-çağırlı günlər başlayıb.

Dünən xalqımız Novruz çərşənbələrinin üçüncüsünü - Yel çərşənbəsini qeyd etdi. Hər tərəfdə tonqallar qalandı, el şənliyə toplaşdı.

Azadlığına qovuşan Ağdamda çatılan tonqalların ərşə ucalan şəfəqi rayonun işğaldan azad edilən bütün kəndlərinə, Qarabağa nur saldı...

Dünən Quzanlıda da bayram əhvali-ruhiyyəsi vardı. O Quzanlı ki, Vətən müharibəsi dövründə düşmən atəşinə tuş gəlməyən evi qalmamışdı. Hər zaman düşmənin qarşısında məğrur dayanmışdı. Heç bir təhlükə, heç bir təxribat ağdamlıları evlərini tərk etməyə məcbur edə bilməmişdi. Sözün əsl mənasında, qəhrəmanlıq və dəyanət nümunəsi idi Quzanlı... O Quzanlı ki, həm çətin, ağır, həm də xoş günlərində daim qonaqlı-qaralı olub.

Prezident İlham Əliyev, Birinci vitse-prezident Mehriban xanım Əliyeva dəfələrlə bu rayona səfər edərək yerli sakinlərə mənəvi dəstək olublar, hər zaman onlara diqqət və qayğı göstəriblər.

Müzəffər Ali Baş Komandan İlham Əliyevin işğaldan azad etdiyi Ağdam ərazilərində neçə-neçə illərdən sonra çərşənbə tonqallarının yandırılması böyük məna kəsb etdi. Bu tonqal doğma Qarabağımızda canlanan həyatın rəmzinə çevrildi. Tonqalın alovu Ağdama gələn yeni həyatın, böyük sabahın, yaradılacaq gülüstanın işartısı idi. Nəhəng tonqal ətrafa işıq saçır, nur paylayır, çatılan ocağın özünəməxsus "zümzümə"si sanki aləmə səs salırdı: "Ağdam, sən artıq "ruhlar şəhəri" deyilsən... Biz yurda qayıdırıq!"

Rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov, ictimaiyyətin nümayəndələri sakinlərlə birgə tonqal ətrafına toplaşmışdılar. Hamı güləruz, sevincli, sabaha inamlı idi...

Bəli, üzümüzə gələn növbəti Novruzun çərşənbələrində Ağdamda, Qarabağda çox tonqallar yandırılacaq. Hər həyətdən səs gələcək, hər bacadan tüstü çıxacaq, hər ocaqda qazan qaynayacaq. Budəfəki Yel çərşənbəsi bax, həmin od-ocaqdan müjdə verirdi.

***Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"***

# Biz birlikdə güclüyük!

# Bayram günlərində xüsusilə ehtiyatlı olmalıyıq

*Əvvəli 1-ci səh.*

Avropada koronavirusa yeni yoluxmaların artması fonunda Ümumdünya Səhiyyə Təşkilatının regional bürosunun rəhbəri Hans Klyuge sayıqlığı itirməməyə və məlum olan bütün tədbirlərə ciddi şəkildə riayət etməyə çağırıb: "Bildiyimiz vasitələrdən istifadə edərək hər yerdə virusun yayılmasını dayandırmalıyıq. Ən ciddi tədbirlərə qayıtmaq lazımdır".

Həmin tədbirlər virusun yeni növlərinə qarşı yüksək sayıqlıq, genişmiqyaslı testləşmə, yoluxmuş şəxslərin təcrid olunması, kontaktların izlənməsi, karantinə yerləşdirilməsi və müalicə olunması, digər xəstəliklərə daha ciddi diqqət, əhali ilə əlaqə və pandemiya "yorğunluğuna" qarşı mübarizə, tədricən koordinasiyalı, real vəziyyətə əsaslanan məhdudiyyətlərin qaldırılması və vaksinasiyanın sürətləndirilməsidir.

ÜST-ün Avropa bürosunun rəhbərinin qeyd etdiyi kimi, vaksinlər artıq insan həyatını xilas edir. "Risk qrupuna aid insanların xəstəxanalara yerləşdirilməsi və ölüm hallarının səviyyəsi əhəmiyyətli dərəcədə azalıb. COVID-19-a qarşı peyvənd kampaniyasına bölgədəki 45 ölkədə başlanılıb, lakin əhalinin bütün qruplarının peyvənd olunmasına qədər hələ çox vaxt keçəcək", - deyə Klyuge xəbərdarlıq edib.

Hazırda bir çox ölkələr yenidən qapanma qərarı verir və karantin rejimini sərtləşdirir. Üstəlik, əksər ölkələrdə həm dövlətlərin zəif əlaqələri, həm də maddi vəziyyətinə görə vaksinasiyaya start verilməyib.

Azərbaycanda iki aya yaxındır ki, vaksinasiya prosesi bütün rayonlarda mərhələli şəkildə davam edir. Hazırkı dövrədək ölkəmizdə 411 min 496 nəfər koronavirus infeksiyasına qarşı peyvənd olunub.

Respublikada vaksinasiya prosesi sürətlə davam etdirilir. Lakin yanvar ayından karantin rejiminin yumşaldılmasından sonra ictimai aktivlik və insanlar arasında ünsiyyətin artması son günlər koronavirusa yoluxma hallarında yenidən müəyyən artıma səbəb olub. Belə ki, fevralın əvvəllərində gündəlik yoluxma ikirəqəmli saya keçsə də, son günlər yoluxanların sayının 400 nəfəri ötdüyünün də şahidi olmuşuq.

Yoluxma sayı yüksəldikcə tibb sisteminin üzərinə düşən yük də artır, həkimlər xəstələrə lazımi qulluq edə bilmirlər. Nəticədə ağır xəstələrin, reanimasiyada süni tənəffüs aparatına bağlı qalanların, boğularaq ölümlə həyat arasında mübarizə aparmaq məcburiyyətində olan insanların və nəticədə ölənlərin də sayı artır.

Bütün dünyada olduğu kimi, Azərbaycanda da pandemiyanın başladığı bir il müddətində bir neçə dəfə karantin rejiminin sərtləşdirilməsi və yumşaldılması qərarları verilib. Təcrübə göstərir ki, hər dəfə karantin rejimi yumşaldıldıqdan sonra yoluxma sayında artımlar müşahidə edilir. Bunun da bir səbəbi insanlar arasında arxayınlaşmanın yaranmasıdır. Sosial məsafənin qorunmaması, tibbi maskadan düzgün istifadə edilməməsi, gigiyenik qaydalara əməl olunmaması gündəlik statistikada artıma, bu isə öz növbəsində vəziyyətin kritik həddə çatmasına rəvac verir.

Qarşıdan Novruz bayramının gəldiyini nəzərə alsaq, insanların ünsiyyətinin artacağı, tətildən istifadə edərək rayonlara üz tutanların sayının çoxalacağı istisna deyil. Bu da koronavirusun yayılmasının sürətlənməsinə səbəb ola bilər.

Xalqımız Novruz bayramını həmişə yüksək səviyyədə qeyd edir. Amma bütün dünyada pandemiyanın bitmədiyini unutmamalıyıq. Bayram günlərində çox ehtiyatlı davranmaq lazımdır. İmkan daxilində qonaq getməkdən çəkinməliyik. Qapalı məkanlara çox üz tutmamalıyıq. Pandemiya ilə ehtiyatlı və məsuliyyətli olmalıyıq. Əgər bayramdan sonra sərt karantin dövrünü yaşamaq istəmiriksə, bu günlərdə əks-epidemik tədbirlərə riayət etməliyik.

Qaydalara əməl etməsək, bayramdan sonra çox güman ki, yoluxma daha da artacaq. Bu da məhdudiyyətləri yenidən labüd edəcək. Ona görə də əvvəlcədən baş verəcəkləri anlamalı və təhlükənin qapıda olduğunu unutmamalıyıq.

Növbəti aylar ərzində, xüsusən insanların sıx təmasda olduğu Novruz bayramında tibbi maskalardan düzgün istifadə etməklə, sosial məsafə qorumaqla, gigiyena qaydalarına uyğun davranmaq və könüllü vaksinasiya olunmaqla Azərbaycanda bir neçə aydan sonra post-pandemiya mərhələsinə start verə bilərik.




***Xəyalə MURADLI, "Azərbaycan"***

# Vaksinlər barədə dezinformasiya səngimir

Ümumdünya Səhiyyə Təşkilatının məlumatına görə, dünyada yeni tip koronavirusa yoluxanların sayı 116,1 milyon nəfəri keçmiş, onların 2,5 milyonu vəfat etmişdir. ABŞ-ın Cons Hopkins Universiteti də oxşar rəqəmlər təqdim edir: planetdə 116,8 milyon nəfərdən çox adam COVID-19-a yoluxmuş, 2,59 milyon nəfərdən çox adam bu xəsətəliyin qurbanı olmuşdur.




Təsdiqlənmiş yoluxma hallarının sayına görə ABŞ dünya lideri olaraq qalır; Birləşmiş Ştatlarda 28,9 milyon nəfər koronavirusa yoluxmuşdur. Hindistan ikinci (11,2 milyon), Braziliya üçüncü (11 milyon), Rusiya dördüncü (4,3 milyon), Böyük Britaniya beşinci yerdədir (4,2 milyon). Fransa, İspaniya və İtaliyada infeksiyaya 3 milyondan çox yoluxma halı qeydə alınmışdır.

Hazırda dünya dövlətləri əhalinin koronavirusa qarşı peyvəndlənməsi kampaniyasını təşkil edir. Kampaniyanın tələb olunan səviyyədə keçirildiyini söyləmək mümkün deyil. Vaksinlərin dünya miqyasında ədalətli şəkildə bölüşdürüldüyünü də iddia etmək olmaz. Xüsusilə yoxsul ölkələrin bu baxımdan vəziyyəti ürəkaçan deyil. Elə ölkələr var ki, onların vaksinə əli hələ çatmamışdır və ona görə də peyvəndləmədən söhbət gedə bilməz.

Nə qədər qəribə olsa da, Avropa kimi inkişaf etmiş regionda da vaksin təchizatı işində ciddi problemlər var. Avropa Komissiyasının sədri Ursula fon der Lyayen qeyd etmişdir ki, Avropa İttifaqında (Aİ) vaksin tədarükünə görə məsuliyyəti "AstraZeneca" şirkəti daşıyır, amma şirkət öhdəliklərini yerinə yetirmir. Belə ki, "AstraZeneca" Aİ-yə indiyədək təxminən 10,7 milyon doza vaksin göndərmişdir, hərçənd şirkət mart ayının sonuna qədər 40 milyon doza tədarük etməyi öhdəsinə götürmüşdü.

Eyni zamanda mövcud vaksinlərin effektivliyi barədə müzakirələr davam edir. Bu da tamamilə təbiidir, çünki əhaliyə məhz ən yaxşı vaksinin seçilib vurulması anlaşılandır. Eyni zamanda bu və ya digər ölkənin hazırladığı vaksin barədə dezinformasiya kampaniyasının aparılması nəzərə çarpır.

ABŞ zaman-zaman iddia edir ki, Rusiya başqa ölkələrin hazırladığı vaksinləri hədəfə alıb. Vaşinqtonun fikrincə, Rusiya xüsusi xidmət orqanlarının dəstəklədiyi dörd internet saytı Qərb istehsalçılarının, o cümlədən ABŞ-ın "Pfizer" və "Moderna" şirkətlərinin vaksinlərinə etibarı sarsıtmaq üçün dezinformasiya yayır. Dövlət Departamentinin mətbuat katibi Ned Prays dünən mövzuya yenidən qayıdıb bildirmişdir ki, sözügedən saytlarda iki vaksin haqqında deinformasiya məzmunlu materiallar yer almışdır, halbuki ABŞ Ərzaq və Dərmanların Keyfiyyəti Məsələləri İdarəsi həmin vaksinləri bəyənmişdir. Prays Rusiyanı ittiham edərək demişdir: "Rusiya köhnə hiylələrə əl atır və bununla da hər gün həyatları xilas edən vaksinlər haqqında dezinformasiya yayaraq insanları potensial riskə məruz qoyur".

Öz növbəsində Moskva Vaşinqtonun ittihamlarını davamlı olaraq rədd edir. Elə srağagün Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov belə iddiaları növbəti dəfə nonsens kimi qiymətləndirmişdir: "Bu, cəfəngiyyatdır. Rusiya xüsusi xidmət orqanlarının vaksinlərin tənqid olunması ilə heç bir əlaqəsi yoxdur". Peskov qeyd etmişdir ki, Rusiya hakimiyyət orqanları yerli "Sputnik V" vaksini barədə hər mənfi rəyi ABŞ xüsusi xidmət orqanlarının fitnə-fəsadı kimi görsəydi, ağlını itirmiş olardı".

Vaksinlər barədə yeni dezinformasiya iddiaları bu yaxınlarda ABŞ-ın "The Wall Street Journal" qəzetində çap olunmuş məqalə yenidən gündəmə gətirmişdir. Qəzet yazırdı ki, Rusiya hökuməti və dövlət KİV-i "Pfizer" vaksininin təhlükəsizliyi ilə bağlı narahatlıq doğurmaq və bununla da özünün "Sputnik V" vaksininin bazara çıxması yolunu təmizləmək üçün kampaniya başlatmışdır. "The Wall Street Journal" ABŞ Dövlət Departamentinin Qlobal Əməkdaşlıq Mərkəzinin əməkdaşına istinadən xəbər verirdi ki, Rusiya kəşfiyyatının təşəbbüsü ilə mətbuatda ən azı dörd yazı dərc olunmuşdur. Həmin materiallarda "Pfizer" vaksininin effektivliyi və təhlükəsizliyi şübhə altına alınır, yan təsirləri riskinin artması qeyd olunur və deyilirdi ki, Vaşinqtonun preparatın qeydə alınması prosedurunu sürətləndirmişdir.

Dünyanın ölkələrində bu və ya digər vaksinə münasibət fərqlidir. Rusiyanın "Sputnik V" vaksini də birmənalı qarşılanmır. Məsələn, Avropa Dərman Vasitələri Agentliyinin sədri Krista Virtumer-Hohe bu vaksinin Avstriyada təcili təsdiqlənməsi ehtimalını "rus ruletkası" ilə müqayisə etmiş, başqa sözlə, preparatı bəyənən ölkələri geri çəkilməyə sövq etməyə cəhd göstərmişdir.

Ümumiyyətlə, koronavirus pandemiyasına qalib gəlmək üçün bəşəriyyətin sıx əməkdaşlıqdan başqa yolu görünmür. Nə qədər acınacaqlı olsa da, dünyanın aparıcı ölkələri başqa yol seçirlər: bəziləri bazarı ələ keçirmək üçün bütün mümkün vasitələrə əl atır, bəziləri də ümumbəşəri bəlaya geosiyasi, diplomatik və s. rəng qatır.

***Allahverdi MEHDİYEV, "Azərbaycan"***

# FHN xüsusi təyinatlı texnikaların hərəkətinə süni maneə törədən faktların aşkarlanaraq aradan qaldırılması üçün reydləri davam etdirir





Fövqəladə Hallar Nazirliyinin (FHN) Dövlət Yanğın Nəzarəti Xidməti xüsusi təyinatlı texnikaların hərəkətinə süni maneə törədən faktların aşkarlanıb aradan qaldırılması üçün reydləri davam etdirir.

FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a daxil olan məlumatda yaşayış, eləcə də digər təyinatlı binaların giriş-çıxışlarının və keçidlərinin bəzən vətəndaşlar tərəfindən süni maneələrlə bağlanmasının ciddi fəsadlara yol aça biləcəyi qeyd olunub. Bildirilib ki, binaların bilavasitə yaxınlığında müxtəlif ölçülü dirəklərin basdırılması, daş, beton parçaları və başqa vasitələrlə yolların hərəkət hissələrinin tutulması, daraldılması, həmçinin yaşayış binalarının yanğın keçidlərində yolların tam və ya qismən bağlanması, o cümlədən şlaqbaumların quraşdırılması baş verə biləcək fövqəladə hadisələr, eləcə də yanğınlar zamanı yanğınsöndürən və digər xüsusi təyinatlı texnikaların taktiki və texniki imkanlarını məhdudlaşdırır, yanğın texnikasının əlverişli mövqedə yerləşdirilməsini və manevr etməsini mümkünsüz edir, əlavə şlanq xətlərinin istifadəsinə zərurət yaradır ki, bu da böyük vaxt və su itkisinə, insanların təxliyə olunmasına, nəticə etibarilə insanların həyat və sağlamlığının, əmlakının qorunmasına yönəldilmiş operativ müdaxiləyə ciddi çətinliklər yaradır.

Bu səbəbdən sadalanan süni maneələrin ünvanlarının müəyyənləşdirilərək aradan qaldırılması istiqamətində FHN-in Dövlət Yanğın Nəzarəti Xidməti tərəfindən qanunamüvafiq tədbirlər davam etdirilir. Belə ki, Xidmətin əməkdaşları tərəfindən reydlər keçirilir, mənzil kommunal təsərrüfatı birlikləri, mənzil tikinti kooperativləri və digər aidiyyəti müəssisə və təşkilatlar qarşısında məsələ qaldırılaraq göstərilən maneələrin demontaj edilməsinə nail olunur. Vətəndaşlarla maarifləndirici söhbətlər aparılaraq acı nəticələrə səbəb ola biləcək problemin mahiyyəti izah edilir, habelə kütləvi informasiya vasitələrinin imkanlarından istifadə edilməklə, o cümlədən sosial videoçarxların yayımlanması vasitəsilə yanğın təhlükəsizliyi qaydalarına əməl olunmasının vacibliyi diqqətə çatdırılır.

"Bir daha vətəndaşlara müraciət edərək fərdi və ictimai təhlükəsizliyə xüsusi həssaslıqla yanaşaraq baş verə biləcək istənilən fövqəladə hadisə zamanı qəza-xilasetmə bölmələrinin operativ və effektli fəaliyyətinə maneə yarada biləcək addımlardan çəkinməyə çağırırıq. Xatırladırıq ki, Azərbaycan Respublikasında qüvvədə olan qanunvericiliyə əsasən, bina və qurğulara, yanğınların söndürülməsi üçün istifadə edilən su mənbələrinə sərbəst yanaşmaq üçün gedən yolların, keçidlərin və girişlərin tutulması qəti yolverilməz olmaqla hüquqi məsuliyyət yaradır", - deyə FHN-in məlumatında bildirilib.

# Baş Prokurorluğun hazırladığı növbəti videoçarxda vətəndaşların prokurorluq orqanlarına operativ müraciət üsulları izah olunub

Ölkəmizdə həyata keçirilən uğurlu islahatlar nəticəsində səmərəli idarəçiliyin formalaşdırılması, dövlət orqanlarının fəaliyyətində operativliyin artırılması, vətəndaşların məmnunluq səviyyəsinin yüksəldilməsi istiqamətində müsbət nailiyyətlər əldə olunub.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, həyata keçirilən kompleks islahatlar prokurorluq orqanlarında da davam etdirilir. Yeni dövrün tələblərinə uyğun olaraq müasir, vətəndaşa yönümlü, onu məmnun edən tədbirlər daim diqqət mərkəzində saxlanılır.

Aşkarlığın təmin olunması məqsədilə prokurorluğun fəaliyyət istiqamətləri ilə bağlı vətəndaşları maraqlandıran Məsələlərlə bağlı Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən müxtəlif maarifləndirici videoçarxlar hazırlanaraq ictimailəşdirilir.

Baş Prokurorluğun Mətbuat xidməti tərəfindən təqdim olunan növbəti videoçarxda vətəndaşların prokurorluq orqanlarına operativ müraciət üsulları ilə bağlı izah verilib.

Videoçarxı Baş Prokurorluğun sosial şəbəkələrdəki səhifələrindən, həmçinin veb-saytından izləmək mümkündür.

# DSMF-nin Ağcabədi rayon filialının əməkdaşının qanunsuz əməlləri ilə bağlı cinayət işi başlanıb

Əhatə etdiyi geniş əhali kateqoriyasına görə sosial-müdafiə sahəsinin mühüm komponentlərindən olan əmək və pensiya təminatı sistemində baş verə biləcək sui-istifadə hallarına qarşı prokurorluq orqanları tərəfindən məqsədyönlü tədbirlərin görülməsi davam etdirilir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilib ki, belə tədbirlərdən biri kimi, nazirlik yanında Dövlət Sosial Müdafiə Fondunun (DSMF) Ağcabədi rayon filialında sosial müavinətlərin təyin edilməsi ilə bağlı yol verilmiş qanunsuzluqlara dair daxil olmuş müraciət əsasında Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb.

Aparılmış istintaq zamanı DSMF-nin Ağcabədi rayon filialının müavinət sektorunun baş məsləhətçisi vəzifəsində işləmiş Bayramov Fariz Nəriman oğlunun xidməti vəzifəsinin icrası ilə əlaqədar 2018-2020-ci illər ərzində ünvanlı dövlət sosial yardımın təyin olunmasına kömək edəcəyi müqabilində ayrı-ayrı rayon sakinlərinin kart hesabına köçürülmüş ödənişlərin ilk bir neçə aylıq məbləğini istəyərək müxtəlif vaxtlarda və yerlərdə nağd şəkildə almasına, həmçinin vətəndaşların bank kartlarını özündə saxlamaqla aylıq köçürülən pul vəsaitlərini nağdlaşdıraraq ümumilikdə 13 min manat məbləğində vəsaiti rüşvət qismində əldə etməsinə və sosial müavinət təyin etdirəcəyi adı ilə vətəndaşa məxsus xeyli miqdarda pul vəsaitini dələduzluq yolu ilə ələ keçirməyə cəhd etməsinə əsaslı şübhələr müəyyənləşdirilib.

Həmin qanunsuz hərəkətləri ilə Fariz Bayramov Cinayət Məcəlləsinin 311.3.2-ci (rüşvət alma - təkrar törədilməklə), 29, 178.2.3-ci (qulluq mövqeyindən istifadə etməklə dələduzluğa cəhd) və 32.4,312.1-ci (rüşvət verməyə təhrik etmə) maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunub və barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Cinayət işinin ibtidai istintaqı tamamlanaraq baxılması üçün aidiyyəti üzrə məhkəməyə göndərilib.


# Tender bildirişi

Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının Nümayəndəliyi kvalifikasiyalı iddiaçıları Azərbaycanda məcburi köçkünlərə və münaqişədən təsirlənmiş digər şəxslərə hüquqi yardım və məsləhət xidmətlərinin göstərilməsi üçün RFP/AZE/001/2021 nömrəli tenderdə iştirak etməyə dəvət edir. Bu fəaliyyətin məqsədi Dağlıq Qarabağdan və ona bitişik yeddi rayondan olan məcburi köçkünlərə hüquqi yardım və məsləhət xidmətlərindən istifadə imkanı təmin etməkdir. Tələb olunan tender sənədlərinə aşağıdakı qaydada giriş əldə etmək olar:

- E-mail: azeba@unhcr.org elektron poçt ünvanına sorğu göndərmək.
- Tender sənədlərini hər iş günü səhər 10:00-dan 16:00-dək buradan əldə etmək olar: Azərbaycan, AZ1014, Bakı, Mirzəağa Əliyev küç., 210, Winter Park Plaza, BMTQAK.
- Maraqlananlar tender sənədlərini bu saytlardan da yükləyib götürə bilərlər: www.azerweb.com və https://azerbaijan.un.org/az/114698-tender-leal-aid-and-counseling-idps.

Təkliflərin təqdim edilməsinin son müddəti **02 aprel 2021-ci il saat 23:59-a qədərdir.**

# Tender Notice

The Representation of the United Nations High Commissioner for Refugees invites qualified companies to participate in the tender RFP/AZE/001/2021 Legal Aid and Counselling to IDPs and other conflict-affected individuals in Azerbaijan. The goal of this activity is providing IDPs from Nagorno-Karabakh and seven adjacent districts with an access to legal aid and counselling services. Access to the required tendering documents can be obtained as follows:

- E-mail: Send an e-mail request to azeba@unhcr.org
- Tender documents are available at: UNHCR, Winter Park Plaza, 210 Mirzaagha Aliyev str. Baku, AZ1014, Azerbaijan, every working day between 10:00 am until 16:00 pm
- Interested companies can download tender documents from www.azerweb.com and https://azerbaijan.un.org/az/114698-tender-leal-aid-and-counseling-idps

The Deadline for submission of offers is **23:59Hrs on 02 April 2021**

## VƏTƏN SƏNƏ OĞUL DEYİR

# Xaləddin düşmənin başına od ələyirdi

## 18 yaşlı şəhidin həm də böyük idman uğurları vardı

44 günlük Vətən müharibəsində Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan Ordusunun qazandığı tarixi Qələbə dövlətimizin qüdrətini bütün dünyaya nümayiş etdirdi. Bu qələbədə Ağstafanın igid oğulları da nümunə göstərdilər və onlardan biri də rayonun Yenigün kəndinin sakini Xaləddin Cəlilovdur.



Uşaq yaşlarından idmana böyük maraq göstərən Xaləddin güləş, boks, kinq-boks, taekvondo ilə məşğul olurdu. O, Türkiyədə kinq boks üzrə keçirilən dünya birinciliyində çempion və Milli Qəhrəman Mübariz İbrahimovun xatirəsinə həsr edilmiş boks üzrə respublika çempionatında birinci olmuşdur.

Xaləddin torpaqlarımızın düşmən tapdağı altında olması ilə barışa bilmirdi. Buna görə də hərbi xidmətə çağırılacağı günü səbirsizliklə gözləyirdi, baxmayaraq ki, İdman Akademiyasına daxil olmuşdu. Odur ki, vaxt yetişəndə hərbi xidmətə böyük həvəslə getdi.

5 ay idi ki, ordu sıralarında xidmət edirdi. Burada da sakit dayanmayan Xaləddin bir neçə dəfə komandirinə xüsusi təyinatlı dəstədə xidmət etmək arzusunu bildirmişdi. Cəsarəti, çevikliyi və bacarığı sayəsində bu arzusunu da gerçəkləşdirdi. O, ötən hər gün qisas üçün alışıb yanan Azərbaycan əsgərinə çevrilirdi. Bu hisslərlə də əməliyyatlarda iştirak edir, düşmən ordusunun hərbçilərinin başına od ələyirdi.

Xaləddinin sonuncu döyüşü Murovdağ istiqamətində oldu. Əməliyyatdan geri qayıdan igid Azərbaycan oğlu düşmənin minamyot atəşinə tuş gəldi. Ağır yaralanan Xaləddinin həyatını xilas etmək mümkün olmadı.

Xaləddin 2002-ci il aprelin 12-də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində anadan olmuşdu. 2003-cü il noyabr ayında ailəsi Ağstafa rayonunun Yenigün kəndinə köçmüşdü. Xaləddin 2019-cu ildə kənddəki Elçin Mustafayev adına Yenigün kənd tam orta məktəbini bitirmişdir. Evin tək oğlu olan Xaləddinin idman uğurları rayon rəhbərliyinin də diqqətindən yayınmamışdır. 2019-cu il oktyabr ayının 18-də Ağstafa Rayon İcra Hakimiyyəti tərəfindən Xaləddin "İlin idmançısı" adına layiq görülmüş və fəxri fərmanla təltif olunmuşdur.









Rayon gənclər və idman idarəsinin rəisi Əziz Məsməliyevlə Xaləddinin böyüyüb boya-başa çatdığı kəndə getdik. Bizi şəhidin atası Asəf kişi və anası Yeganə xanım qarşıladılar. Hiss etdik ki, onlar oğullarının şəhid olması ilə fəxr etsələr də, ürəklərində bir sızıltı var. Söhbət zamanı valideynlər ancaq Xaləddinin uğurlarından danışır, onun necə mərd və igid olmasını vurğulayırdılar.

Otağın bir küncündəki Xaləddinin şəkilləri və təltiflərini, idman uğurlarını əks etdirən guşəyə tez-tez baxdığımızı görən Asəf kişi bizi guşəyə dəvət etdi. 18 yaşlı bir gəncin bu sayda mükafatlara layiq görüldüyü bizi də təəccübləndirdi. Asəf kişinin əlində tutduğu qara kəmər isə onun karate üzrə uğurlarının daha çox olmasından xəbər verirdi.

Bu gün valideynləri belə bir mərd və igid oğul böyütdükləri üçün qürur hissi keçirirlər. Anası Yeganə xanım gözünün ağı-qarası olan bir oğlu ilə daim fəxr edəcəyini söylədi. Dedi ki, o, doğma Vətəni və anası üçün özünü ölümə atmağa hazır idi. Vətən müharibəsində bu arzusunu gerçəkləşdirdi.

Şəhid Xaləddin Cəlilov ölümündən sonra ölkə başçısı tərəfindən "Vətən uğrunda" və " Cəsur döyüşçü" medalları ilə təltif olunmuşdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Vətənin vüqarlı oğlu

"Zəngəzurun Qafan rayonundan olan qaçqın ailəsində böyümüşəm. El-obamın, ailəmin zorla qovulduqları doğma torpaqlarından uzaqda keçirdikləri, ağrılı, həsrətli yaşamın şahidiyəm və lap körpəlikdən bu hissləri qəlbimlə duymuşam. Elə buna görə də həyatdakı ən böyük arzum işğal altında olan torpaqlarımızın azad olunması və mənim də bu haqq davasında iştirak etməyim idi.

Çünki istəmirdim ki, daha kimsə qaçqın, məcburi köçkün adını üzərində daşısın, o ailələrdə böyüyən uşaqlar doğma yurdlarını yalnız valideynlərinin sınıq xatirələrindən, ya da saralmış fotoşəkillərdən tanısın. Düşmən əlində inləyən od-ocaqlarına əlləri çatmasın, ünləri yetməsin... Mənim kimi..."

İyulun 14-ü 2020-ci il...

Azərbaycan gəncliyinin qanında qəzəb və qisasın coşub-daşdığı tarix...

General Polad Həşimovun şəhadətə yüksəldiyi o gün Vətən uğrunda könüllü olmağı seçib Prezidentin hərbi siyasətinə dəstək yürüşünə çıxan, sonra isə Səfərbərlik və Hərbi Çağırış İdarəsinə müraciət edən gənclərimizdən biri də Vüqar Muradov oldu.

Ali Baş Komandanın "İrəli!" əmrinə hay verən on minlərlə vətənpərvər oğula qoşulub bu torpağın hər qarışı uğrunda vuruşmağa, düşmənə dərs verməyə yollandı...

"Ürəyimdə düşmənə ikiqat nifrət hissi var idi. Ermənilərin illərlə Azərbaycan xalqının başına gətirdikləri müsibətlər, Xocalıda törətdikləri soyqırımı hər birimizin qəlbində ağır yara idi və bir gün o günahsız insanların qisasını mütləq alacağımızı bilirdim. 1918-ci ildə mart soyqırımı zamanı ermənilər Qafanda insanlarımıza qarşı qətliam törədəndə mənim əcdadlarımı, doğmalarımı da şəhid ediblər. Nənəm hər zaman bizə anasının, atasının başına gətirilən faciələrdən danışırdı..."

### Həyatımın ən şərəfli mərhələsi başladı

Vüqar Muradov 1990-cı il noyabrın 9-da Bakı şəhərində anadan olub. İlk təhsilini 271 saylı tam orta məktəbdə alıb, Odlar Yurdu Universitetinin Ekologiya fakültəsinə qəbul olub. Universiteti bitirdikdən sonra həqiqi hərbi xidmətə yollanan Vüqar Gəncə şəhərində "N" saylı hərbi hissədə xidmət edib. Hərbi xidməti başa vurduqdan sonra holdinqlərin birində reklam işində çalışıb.

General Polad Həşimovun şəhidlik xəbərini eşidəndən sonra könüllü olaraq hərbi səfərbərlik şöbələrində qeydiyyata düşənlərdən biri də Vüqar olub:

- Sentyabrın 21-i səhər saat 8 radələrində qapı döyüldü və məni Səfərbərlik və Hərbi Çağırış üzrə Dövlət Xidmətinin Sabunçu rayon idarəsinə çağırdılar ki, ənənəvi təlimlərdə iştirak edim. O zaman müharibə olmadığından sadəcə təlimlərə qatılacağımı düşünərək heç evdəkilərlə, anamla, atamla halallaşmadan yola düşdüm. Bakıda "N" saylı hərbi hissədə təlimlərə qatıldım. Sentyabrın 27-də isə düşmənin təxribatına cavab olaraq Vətən müharibəsi başladı. Və beləliklə, mənim həyatımın ən şərəfli mərhələsi - döyüş yolu başladı".

Savaşın ilk günlərində Vüqara və döyüş yoldaşlarına içərisində ad-soyadları, hansı bölükdən olmaları ilə bağlı məlumat yazılmış gilizlər verilir: "Bizə bu gilizləri vermələrinin səbəbi o idi ki, şəhid olsaq, o gilizlərin içərisindəki məlumatla kimliyimizi müəyyən etmək mümkün olsun".

### Elə bil Allah bizə cənnət bəxş etmişdi

Vətən müharibəsinin ilk günündən cəbhədə olan Vüqarın döyüş yolu Füzulidən başlayır. İndiyə qədər savaş barədə II Dünya müharibəsinin iştirakçısı olan babasının, I Qarabağ müharibəsinin iştirakçısı dayısının danışdıqlarından, filmlərdən məlumat almışdısa, sentyabrın 27-dən özü topların, minaatanların, tankların səsi hər yeri bürümüş vahiməli bir dünyanın içərisində idi:

- İlk gün hər kəsdə həyəcan var idi. Amma intiqam hissimiz o qədər güclü idi ki, digər duyğuları tamamilə yox edirdi. Uğrunda döyüşdüyümüz torpaqların hər qarışı şəhidlərimizin qanı ilə suvarılmışdı və biz bu müqəddəs yerlərdən düşmənin murdar ayağını qazıyıb atmaq üçün savaşırdıq.

Döyüşdə çətinliklər də olurdu, yuxusuzluq, saatlarla ayaq üstdə qalmaq, aclıq-susuzluq da... Amma bütün bunlara rəğmən ruh yüksəkliyi ilə daim irəli getmək istəyirsən. Bizim hərbi hissənin döyüş istiqaməti Füzuli, Cəbrayıl, Xocavənd, Şuşaya doğru idi. Xidmətimdə olan maşınla hərbi bölmələrin maddi-texniki təminatı ilə məşğul idim. Ön cəbhəyə silah-sursat, yanacaq, yemək, paltar tədarük edirdim.

Haqq davası apardığımız həmin günlərdə sanki təbiət də döyüşçülərimizə dəstək idi:

- Havalar çox gözəl keçirdi, elə bil Allah bizə cənnət bəxş etmişdi. Qarabağ kimi soyuq iqlimi olan bir yerdə cəmi bircə dəfə yağış yağdı. O zaman biz Füzuli istiqamətində idik. Havanın yağmurlu olması heç cür bizə sərf etmirdi. Çünki texnikalar palçığa batırdı, istifadə etmək mümkün olmurdu, məhdudiyyətlər yaşanırdı. Biz təminatı gecikdirsək, hər şey tamamilə fərqli ola bilərdi. Belim ağrısa, əllərim tutmasa, yuxusuz, ac olsam belə döyüşçülərimizin təminatını çatdırırdım. Müharibədə hər anın öz hökmü var. Bir an tez, bir an gec döyüşdə insan həyatı bahasına başa gələ bilər. Buna görə üzərimə düşən vəzifəni layiqincə yerinə yetirmək üçün var qüvvəmlə çalışırdım.

### Üzərimizə mərmi düşsəydi, heç kim sağ qala bilməzdi

Vüqar daim artilleriya atəşi altında olan təhlükəli yollarla döyüşçü yoldaşlarına lazımi yük daşıyırdı. Və elə olurdu ki, gün ərzində dəfələrlə ölümlə üz-üzə gəlirdi.

- Füzuli istiqamətində döyüşlər zamanı gecə saat 12 radələrində başımızın üstündən smerç tipli raket keçib yaxınlığımıza düşdü. Zərbənin dalğasından evlərin pəncərələri sınıb töküldü, maşının içində olsam belə təzyiqdən silkələndim. Elə bildim şəhidlik məqamım yetişib. Amma raket bizdən kənara düşmüşdü. Ümumiyyətlə, əgər üzərimizə bir mərmi belə düşsəydi, heç kim oradan sağ çıxa bilməzdi. Texnikaların içi silah-sursatla, tank, top mərmiləri ilə dolu olurdu.

Düdükçü kəndi istiqamətindəki döyüşlərdə bizə minaatandan çoxlu atəş açıldı. Xeyli silah-sursatı göndərmişdik, sadəcə texnikamız arxadan gəlirdi. Orada bizi vurmağa başladılar və həmin minaatan mərmilərindən biri yaxınlığımıza düşdü. Çox şiddətli zərbə hiss etdim. Xocavənd rayonunun Beştağlar kəndi yaxınlığında da belə bir təhlükə ilə üz-üzə qaldıq. Oktyabrın axırları da yaxınlığımıza mərmi düşdü və bu dəfə də möcüzə sayəsində hədəfdən yayındıq. Görünür, qismətimdə şəhidlik zirvəsinə ucalmaq yox imiş...



### Şəhidlik ülvi hissdir, hər adama qismət olmur

- Bu uca məqama yüksələn çox döyüşçü yoldaşlarımız oldu. Müharibədə ilk həqiqi hərbi xidmətdə olduğum zamanda keçmiş komandirim Nurlan Həsənovla qarşılaşdım. O həm komandirim, həm də dostum olmuşdu. Oktyabrın 11-də şəhadətə qovuşdu. Bu xəbəri eşidəndə çox üzüldüm. Sonra xeyli döyüşçü qardaşlarım şəhid oldu. Bilirsiniz, bir yerdə oturub-durduğumuz, gülüb-danışdığımız, çörək kəsdiyimiz birini son mənzilə yola salmaq çox üzücü, sözlə ifadə olunmayacaq dərəcədə ağırdır.

Müharibə başqa dünyadır, orada sevinci də, kədəri də birlikdə yaşayırsan. Və o qanın-qadanın içərisində, çətinliklərdən yoğrulan dostluqlar da qurduq. Komandirim Elçin Əliyev bizim üçün həqiqətən can yandırdı. Famil, Rauf, Yelmar, Əkbər, Hüseyn və bir çox döyüşçü yoldaşlarımızla bundan sonrakı mülki həyatımızda da dostluğumuzu davam etdirəcəyik.

### Şuşa qələbəsi doğum gününə ən böyük hədiyyə oldu

Vüqar deyir ki, ailəsi müharibənin ilk günlərində onun döyüşdə olduğunu bilməyib, İmişlidə təlim keçdiyini zənn ediblər:

- Yalnız son günlərdə müharibədə olduğumdan xəbər tutdular. Sonradan cəbhədə olduğumu qardaşıma demişdim ki, işdir, birdən başıma nəsə gəlsə, evdə kimsə bilsin...

O, "Canım sənə fəda, Vətən" deyərək ailəsi, ata-anası ilə belə halallaşmadan müharibənin ilk günündən ön cəbhəyə yola düşmüşdü...

Və bu 44 günlük zəfər yürüşü ərzində gecə-gündüz demədən, düşmənin güllə yağışı altında xidmətində olan maşını ilə döyüşçülərimizə silah-sursat, yanacaq, ərzaq daşıyıb...

Bir dəqiqə belə gecikməmək üçün zamanla yarışıb, dəfələrlə düşmən hədəfinə tuş gəldi, ölümlə burun-buruna qaldı, amma yağıya sonsuz nifrətindən, ürəyindəki Vətən sevgisindən güc alaraq bütün çətinliklərə, ürəyindəki ən böyük arzuya çatıb, Qarabağı azadlığa qovuşduran qalib ölkənin döyüşçüsü kimi fəxarətlidir.

Vüqarın həyatındakı ən böyük hədiyyəsi isə doğum günündə, 9 noyabrda aldığı Şuşa qələbəsinin müjdəsi oldu...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Martın 8-də ağstafalı şəhid ailələri ziyarət edilmişdir







Ağstafada rayon qadınlarına xüsusi diqqət və qayğıkeşliklə yanaşılır. Martın 8-də isə bu diqqət və qayğıkeşlik ikiqat artır.

Beynəlxalq Qadınlar Günü rayon icra hakimiyyəti könüllü gənclərlə birlikdə Vətən müharibəsində şəhid olmuş oğullarımızın analarını və həyat yoldaşlarını ziyarət etmişdir.

Keçirilən görüşlərdə könüllü gənclər diqqətə çatdırmışlar ki, bütün şəhid anaları, xanımları bizim üçün dəyərli və əzizdir. Bildirmişlər ki, Azərbaycan xalqı bu gün ən ali zirvəyə - şəhidlik zirvəsinə yüksələn şəhidlərimizlə qürur duyur, hər zaman onların ruhları qarşısında baş əyir. Onları yad etmək, xatirələrini əziz tutmaq hər bir Azərbaycan vətəndaşının müqəddəs borcudur.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# Əfqanıstanda qadın jurnalistlər peşələrini tərk edirlər

Əfqanıstanda artan təhdidlər və sui-qəsdlər fonunda qadın jurnalistlər peşələrini tərk edirlər. Bu barədə Jurnalislərin Toxunulmazlığı Komitəsi məlumat vermişdir.

Son altı ay ərzində 300-ə yaxın qadın, yəni ümumi sayın 20 faizi jurnalistikadan getmişdir. Peşəsini tərk etmiş bir çox media əməkdaşı xaricə üz tutur.

Ölkədə son bir il ərzində 10-dan çox KİV əməkdaşı öldürülmüşdür. Martın 2-də özəl telekanalın 3 qadın əməkdaşı ölkənin şərqində yerləşən Nənqərhar əyalətində silahlı hücumun qurbanı olmuşdur. Son vaxtlar jurnalistlərə, fəallara, din xadimlərinə, dövlət məmurlarına və təhlükəsizlik qüvvələrinin əməkdaşlarına qəsdlərin sayı artmışdır.

Əfqanıstan hökuməti bu hücumlara görə məsuliyyəti "Taliban" hərəkatının üzərinə qoyur. Öz növbəsində hərəkat zorakılıq aktlarında iştirakını təkzib edir.

## Beynəlxalq aləm

# Yaponiya arakanlı qaçqınlara 19 milyon dollarlıq yardım edəcək



Yaponiya Arakandan olan qaçqınların ərzaq və tibbi ləvazimat tələbatını ödəmək üçün 19 milyon dollar məbləğində maliyyə yardımı ayırmışdır. Bu barədə ölkənin Xarici İşlər Nazirliyi məlumat vermişdir.

Maliyyə dəstəyi Myanma hökumətinin təzyiq və zorakılığından qaçmış Arakan müsəlmanlarına göstəriləcək. Yardım Beynəlxalq Qırmızı Xaç Komitəsi, Dünya Ərzaq Proqramı və Beynəlxalq Miqrasiya Təşkilatının xətti ilə ediləcək.

Yardım çərçivəsində Myanma və Banqladeşdə 58 xəstəxana zəruri tibbi ləvazimatlarla təmin olunacaq, 600 min nəfərə yaxın adam ərzaq alacaq.

Xatırladaq ki, Myanmanın şimalında yerləşən Arakan ştatında müsəlmanlara hücumlar 2017-ci il avqustun 25-də "sulahlı quldurlarla mübarizə" pərdəsi altında başlamışdır. Regionda humanitar vəziyyət kəskin şəkildə pisləşmişdir.

1970-ci illərdən başlayaraq Arakan müsəlmanları sistematik hücumlara və etnik təmizləmələrə məruz qalırlar. Sayı 2 milyon nəfərə çatan myanmalı müsəlmanların təxminən 80 faizi qonşu ölkələrdə, əsasən Banqladeşdə sığınacaq tapmışdır. BMT və beynəlxalq hüquq-müdafiə təşkilatları müsəlmanlara hücumları etnik təmizləmə, yaxud soyqırımı kimi qiymətləndirir.

# BƏƏ-də "Səhra bayrağı" təlimləri start götürdü

Birləşmiş Ərəb Əmirliklərinin "əd-Dərfa" aviabazasında 7 ölkənin iştirakı ilə "Səhra bayrağı" hərbi təlimləri start götürmüşdür. Bu barədə Səudiyyə Ərəbistanının SPA informasiya agentliyi xəbər verir. Məlumata görə, təlimlərdə Səudiyyə Ərəbistanı, BƏƏ, ABŞ, Fransa, Hindistan, Cənubi Koreya və Bəhreyn iştirak edəcək. Manevrlər martın 25-dək üç mərhələdə keçiriləcək. Hücum və əks-hücum əməliyyatlarının döyüş ssenariləri işləniləcək, təlim uçuşları keçiriləcək.

# Baş Prokurorluq Naxçıvan Muxtar Respublikasının sabiq daxili işlər nazirinin həbs olunması xəbərini təsdiqləyib

Azərbaycan Respublikasının Baş Prokurorluğu Naxçıvan Muxtar Respublikasının sabiq daxili işlər naziri general-leytenant Əhməd Əhmədovun həbs edilməsi ilə bağlı xəbərlərə münasibət bildirib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ə.Əhmədovun həbs edilməsi ilə bağlı yayılan məlumatlar doğrudur.

Xatırladaq ki, Ə.Əhmədovun mənimsəmədə təqsirləndirilərək saxlanılması və onun barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilməsi ilə bağlı məlumatlar yayılıb.

# Polislər Qubadlı və Cəbrayılda Ermənistan ordusunun atıb qaçdığı silah-sursat aşkarlayıblar

Vətən müharibəsində işğaldan azad olunmuş torpaqlarımızda sarsıdıcı məğlubiyyətə uğramış Ermənistan ordusunun atıb qaçdığı silah-sursatın aşkar edilməsi istiqamətində tədbirlər davam etdirilir.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Bərdə regional qrupundan AZƏRTAC-a verilən məlumata görə, Qubadlı və Cəbrayıl Rayon Polis şöbələrinin əməkdaşları aidiyyəti qurumların təmsilçiləri ilə birlikdə partladıcı vasitələrin, silah-sursatın aşkar edilməsi və istifadəyə yararsız olanların zərərsizləşdirilməsi məqsədilə xidməti ərazidə müntəzəm reydlər aparırlar.

Növbəti belə tədbir zamanı Qubadlı RPŞ əməkdaşları tərəfindən erməni hərbçilərin ataraq qaçdığı 1 ədəd minaatan qurğusu, 6 ədəd avtomat, 21 ədəd müxtəlif növ qumbara və alışdırıcıları, 12 ədəd qumbaraatan mərmisi və alışdırıcıları, 3760 ədəd müxtəlif çaplı patron aşkar edilərək götürülüb.

Cəbrayıl RPŞ-nin əməkdaşları tərəfindən isə 20 ədəd avtomat aşkar edilərək aidiyyəti üzrə təhvil verilib.

**BİLDİRİŞ**

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 10 saylı Ərazi Maliyyə Hesablaşma Mərkəzi tərəfindən "Azərbaycan" qəzetinin 23 fevral 2021-ci il tarixli sayında dərc olunmuş 2021-ci il üçün odun yanacağının satın alınması ilə əlaqədar keçirilməsi nəzərdə tutulan açıq tender elanı ləğv edilmişdir.

*Tender komissiyası*

## Hacıqabul Suvarma Sistemləri İdarəsi 2021-ci ildə "Qurğuların əsaslı təmiri" xərc maddəsində işlərin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçiriləcək.

**LOT- "Qobu-1" torpaq kanalının (pk24+00-pk59+00) beton üzlüyə alınması və üzərindəki HTQ təmiri (işin davamı) işlərinin satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının aidiyyəti xidmətlər üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Müqavilənin tələb olunan yerinə yetirilmə müddəti: 31.12.2021-ci il tarixə kimidir.

Tenderlə əlaqədar məlumat almaq üçün elektron qaydada əlaqələndirici şəxsə müraciət etmək olar. Əlaqələndirici şəxs: Məmmədov İlham Calal oğlu (iqtisadçı)

Ünvan: Hacıqabul şəhəri, R.Behbudov -14

E-mail: haciqabulssi@mail.ru

Tel: 021-20-4-37-29

Maraqlananlar tenderin Əsas şərtlər toplusunu (Əsas şərtlər toplusu Azərbaycan dilində hazırlanmışdır) tenderdə iştirak etmək üçün elektron müraciət etdikdən və aşağıda qeyd olunan hesaba 100 (bir yüz) manat məbləğində vəsaiti ödədikdən sonra dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron qaydada ala bilərlər. Ödənilmiş iştirak haqqı heç bir halda geri qaytarılmır.

**Bank rekvizitləri-**
**Hacıqabul Suvarma Sistemləri İdarəsi**
**H/h: AZ13CTRE00000000000002353301 (fond -7)**
**VÖEN: 8100058371**

**Bank: Dövlət Xəzinədarlıq Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/h: AZ41NABZ01360100000000003944**
**S.W.I.F.T: BIK CTREAZ22**

Malgöndərənlər (podratçılar) iddiaçı statusu almaq və tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

- *iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*
